**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

*На правах рукописи*

**СЕВДА АГАМИРЗА КЫЗЫ АЛИЕВА**

# УЧАСТИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В МЕЖКУЛЬТУРНОМ ДИАЛОГЕ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ (СРАВНИТЕЛЬНО-ПОЛИТИЧЕСКИЙ АНАЛИЗ)

Специальность: 5901.01 – «Международные отношения»

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени
доктора политических наук

**ВАКУ – 2016**

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**SEVDA AĞAMİRZƏ QIZI ƏLİYEVA**

# AZƏRBAYCAN RESPUBLİKASININ QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQDA İŞTİRAKI (MÜQAYİSƏLİ-SİYASİ TƏHLİL)

İxtisas: 5901.01 – «Beynəlxalq münasibətlər»

Siyasi elmlər üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI - 2016**

İş AMEA-nın İnsan Hüquqları İnstitutunda yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** Tarix üzrə elmlər doktoru, professor
**İ.M.HÜSEYNOVA**

**Rəsmi opponentlər:** Tarix üzrə elmlər doktoru, professor
**F.T.MƏMMƏDOV**

Tarix üzrə elmlər doktoru, professor
**H.C.ƏLİBƏYLİ**

Siyasi elmlər üzrə elmlər doktoru
**A.M.YUSİFZADƏ**

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin
«Diplomatiya və müasir inteqrasiya
prosesləri» kafedrası

Müdafiə __24/02______________ 2016-cı ildə saat ______-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az1001, Bakı şəhəri, Lermontov küç., 74.

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat _________________________ 2016-cı ildə göndərilmişdir.

**FD 02.101 Dissertasiya Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent** **S.İ.Məmmədova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

***Tədqiqat mövzusunun aktuallığı.*** Milli mədəniyyətlərin inkişaf perspektivlərinin, ümumdünya mədəni proseslərin, mədəniyyətlər arasındakı münasibət və əlaqələrin öyrənilməsi bütün dövrlərdə mühüm əhəmiyyət kəsb edən məsələlər olmuşdur. Lakin xalqlar, dövlətlər, ölkələr arasında siyasi, iqtisadi, mədəni əlaqələrin getdikcə genişlənməsi, qloballaşma və inteqrasiya proseslərinin daha da dərinləşməsi ilə səciyyələnən müasir dövrümüzdə bu məsələlər daha da aktual xarakter daşımağa başlamışdır.

Dövrümüzün çağırışları və beynəlxalq münasibətlərdə baş verən köklü dəyişikliklər milli mədəniyyətlər qarşısında bir sıra yeni, həlli vacib məsələlər qoyur. Qloballaşma prosesləri təkcə mədəniyyətlərin qarşılıqlı uzlaşması və qarşılıqlı zənginləşməsi ilə müşayiət olunmur, xalqların və ölkələrin mədəni özünəməxsusluğuna ciddi təhlükələr yaradır. Milli mədəniyyətlərin, milli-mənəvi dəyərlərin gələcək taleyi indi bütün bəşəriyyəti düşündürən problemlərdən birinə çevrilmişdir. Belə şəraitdə beynəlxalq səviyyədə mədəni dialoqun qurulması qlobal gündəliyin əsas məsələsini təşkil edir.

Dünyada öz milli köklərindən və koloritindən kənarda mədəniyyət mövcud deyildir. Eyni zamanda milli mədəniyyətlərin inkişafını da ümumdünya proseslərindən təcrid olunmuş şəkildə təsəvvür etmək mümkün deyildir. Bu baxımdan son vaxtlar milli mədəniyyətlərin qarşılıqlı təsiri, mədəniyyətlərarası dialoq, milli və ümumbəşəri dəyərlərin əlaqəsi, mədəniyyət və sivilizasiya, multikulturalizm problemlərinin geniş diskussiya predmetinə çevrilməsi təsadüfi deyildir.

Bu gün milli mədəniyyətimiz ölkəmizin sivilizasiyon dünyada layiqli yer tutmasının əsas amillərindən biridir. Ənənəvi milli identikliyimizi qorumaq şərti ilə dünya mədəni birliyinə inteqrasiya olunmağımızda mədəniyyətimizin strateji potensialı xüsusi rol oynaya bilər. Azərbaycanın beynəlxalq nüfuzunun getdikcə artması, Azərbaycan dövlətinin, onun başçısı hörmətli İlham Əliyevin bu vəzifəni uğurla yerinə yetirdiyini göstərir. Mədəniyyətimiz, milli-mənəvi dəyərlərimiz antiazərbaycan şəbəkəsinin ifşa olunmasında, ölkəmizin milli maraqlarının və milli təhlükəsizliyinin təmin edilməsində də ən səmərəli vasitə ola bilər.

Hazırda müstəqil Azərbaycan dövlətinin həllinə çalışdığı mühüm vəzifələrdən biri də dünya birliyinin bərabərhüquqlu üzvü kimi beynəlxalq aləmdə gedən inteqrasiya proseslərində yaxından iştirak etmək, xarici ölkələrlə, beynəlxalq və regional qurumlarla ikitərəfli və çoxtərəfli əməkdaşlığı genişləndirmək və bununla da öz milli maraqlarını təmin etməkdən ibarətdir. Azərbaycan dövlətinin xarici siyasəti məhz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu faydalı əlaqələri inkişaf etdirmək, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etmək məqsədlərinə xidmət edir.

Dünyada baş verən siyasi, iqtisadi, mədəni hadisə və proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Ölkəmizdə həyata keçirilən mütərəqqi ictimai-siyasi, iqtisadi islahatlar, milli-mənəvi dirçəliş, fəal xarici siyasət respublikamızın dünya inteqrasiyasına daha sürətlə cəlb olunmasına, beynəlxalq münasibətlər sistemində özünə layiq yer tutmasına, ərazi bütövlüyünün təmin ediləcəyinə inamı daha da artırır. Bu vəzifələrin həllində mədəniyyət faktoru mühüm rol oynayır. Ümumiyyətlə, hər bir dövlətin beynəlxalq münasibətlərdəki rolu və yeri başqa digər faktorlarla, hərbi, iqtisadi, siyasi resurslarla yanaşı, mədəni resursları, dünya ictimaiyyətinə göstərə biləcəyi intellektual və mədəni-mənəvi təsir imkanları ilə də müəyyən edilir. Həmin resurslar ənənəvi milli-mənəvi kimliyimizi və özünəməxsusluğumuzu qorumaqla yanaşı ümumdünya mədəni proseslərə uğurlu inteqrasiya olunmaq üçün baza rolunu oynayır. Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun, dünyaya təsir imkanlarının artması, milli maraqlarının təmin edilməsi həm də bizim mədəni dünyaya hansı dərəcədə və hansı sürətlə inteqrasiya olunmağımızdan asılıdır. Ölkəmiz dünyada genişlənən iqtisadi və siyasi əməkdaşlıqda fəal iştirak etdiyi kimi, beynəlxalq arenada həyata keçirilən mədəni proqram və layihələrdən də kənarda qalmamalıdır. Məhz bu proses çərçivəsində dünyanın müxtəlif xalqlarının, regionlarının zəngin mədəni dəyərlərini özündə əks etdirən yeni, inteqrasiya olunmuş dünya mədəniyyətinin elementləri təşəkkül tapmağa başlayır. Bu prosesdə iştirak etməklə Azərbaycan malik olduğu bənzərsiz milli-mədəni potensialını reallaşdırmağa, dünya mədəniyyətinin inkişafına öz töhfələrini verməyə, eyni zamanda milli mədəniyyətimizin daha da zənginləşməsinə imkan tapır.

Müasir dünyada bir sıra radikal dəyişikliklər baş verir. Ən mühüm və aparıcı meyllərdən biri iqtisadi, sosial, mədəni və elmi-texniki qloballaşmadır. Dövrümüzün ümumdünya iqtisadi, siyasi və mədəni inteqrasiya və unifikasiya prosesi olan qloballaşma prosesinin müxtəlif aspektləri mübahisələr və diskussiyalar predmeti olaraq qalmaqdadır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin

qeyd etdiyi kimi, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin sabitliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir. Sözsüz ki, beynəlxalq hüquq prinsipləri və normalarının aliliyi, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı, hər bir ölkənin səciyyəvi milli cəhətlərini də nəzərə alınması bu prosesin müəyyənedici istiqamətləri olmalıdır[1].

Son dövrlərdə Azərbaycan beynəlxalq mədəniyyətlərarası forumların keçirildiyi ənənəvi məkanlardan birinə çevrilməkdədir. YUNESKO, İSESKO, BMT-nin Sivilizasiyalar Alyansının, Avropa Şurası, onun Şimal-Cənub Mərkəzinin dəstəyi ilə 2010-cu və 2012-ci illərdə Bakıda I və II Ümumdünya Mədəniyyətlərarası Forumlarının keçirilməsi bunun bariz nümunəsidir. 2011-2013-cü illərdə, I II və III Bakı Beynəlxalq Humanitar Forumların təşkili, digər mötəbər toplantıların keçirilməsi Bakı prosesinin əsasını qoymuş və ümumdünya mədəniyyətlərarası dialoq və əməkdaşlığın inkişafına Azərbaycan dövlətinin konkret töhfə verdiyini bir daha sübut etmişdir. Bu forumlarda mədəniyyətlərarası dialoqun konseptual, ideoloji və praktik aspektləri müzakirə olunmuş, dialoq yolunda maneələr nəzərdən keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərdiyi kimi, biz istəyirik ki, bütün xalqların, bütün dinlərin nümayəndələri bir-biri ilə sıx təmasda olsunlar, bütün problemləri açıq şəkildə müzakirə etsinlər, öz fikirlərini bildirsinlər. [2]

Bununla əlaqədar qloballaşma və milli mədəniyyətlərin, lokallaşmanın qarşılıqlı nisbəti problemi olduqca aktuallıq kəsb etməyə başlayır. Qloballaşan dünyada milli özünəməxsusluğu və unikallığı necə qoruyub saxlamaq və eyni zamanda bəşəriyyətin qlobal inkişaf perspektivlərinin yaratdığı üstünlüklərdən necə səmərəli istifadə etmək olar? Bu sual eyni dərəcədə, bütün ölkələri və xalqları düşündürən məsələyə çevrilmişdir.

Müasir tarixi inkişaf mərhələsində dünyamızın ən mühüm problemlərindən biri mədəniyyətlər və sivilizasiyalar arasında dialoq problemidir.

Beynəlxalq birliyin uzunmüddətli fəaliyyət proqramı kimi mədəniyyətlərin, sivilizasiyaların dialoqunun əsası 1998-ci ildə BMT Baş Məclisinin qərarının qəbul edilməsi ilə qoyulmuşdur. XXI yüzillik BMT-nin himayəsi altında sivilizasiyalar arasında dialoq ilə başlamışdır. 9 noyabr 2001-ci ildə BMT-nin Təhlükəsizlik Şurasının 56-cı sessiyasında qəbul edilmiş “Sivilizasiyalar arası dialoq üçün qlobal gündəlik” bütün bəşəriyyətin taleyini müəyyənləşdirən, XXI əsrin imperativi olacaq tədbirlər proqramıdır. Azərbaycanın birinci ledisi M.Əliyeva dialoq haqqında danışarkən göstərir ki, mədəniyyətlərarası və sivilizasiyalararası dialoq indi dünyada ən aktual və ən populyar mövzulardan biridir. Artıq mədəniyyətlərarası dialoq sırf kulturoloji problem çərçivəsindən çıxaraq böyük siyasətin probleminə çevrilibdir. Bizim hər birimiz öz ölkəmizin vətəndaşı olmaqla yanaşı, bəşəriyyət adlı bir ailənin üzvüyük. Qloballaşma prosesi hər birimizi böyük və ümumi bir məkanın sakinlərinə çeviribdir. Bu məkanda insanlararası, dövlətlərarası, xalqlararası dialoq məhz etik, normal, haqq-ədalət prinsipləri əsasında qurulmalıdır.[3]

Tarixin bütün dövrlərində Azərbaycan müxtəlif mədəniyyətlərin, dinlərin təmas və dialoq məkanı olmuş, xalqlar və etnoslar arasında mehriban birgəyaşayışın zəngin təcrübəsinə malik olmuşdur. Müasir dövrdə də ölkəmizdə müxtəlif millətlərin, dinlərin, mədəniyyətlərin nümayəndələrinin azad, bərabər yaşamaları dövlətimizin dünya dövlətləri arasında unikallığını şərtləndirən əsas amillərdəndir.

Azərbaycan bu gün öz üzərinə götürdüyü tarixi missiyanı – Qərb, Şərq sivilizasiyalarını birləşdirmək, müxtəlif mədəniyyətləri qovuşdurmaq missiyasını uğurla yerinə yetirir. Həyata keçirilən siyasət son nəticədə dünyanın bütün dövlətləri ilə əməkdaşlığın genişlənməsinə, dünyada və regionda sülh və əməkdaşlığın inkişafına xidmət edir. Azərbaycanın təşəbbüsü ilə keçirilən beynəlxalq forumlar ölkəmizin mədəniyyətlərin dialoqunda fəal iştirak etdiyini, tarixi-coğrafi, mənəvi-mədəni missiyasını uğurla daşıdığını bir daha təsdiq edir.

Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycanda dünya miqyaslı humanitar məsələlərin müzakirə olunduğu beynəlxalq tədbirlərin müntəzəm təşkili ölkəmizin mədəni-humanitar dialoqda oynadığı rolun göstəricisidir. Bu tip forumlar müasir dövrümüzdə qarşıda duran problemlərə, humanitar əməkdaşlıqla bağlı ən mühüm məsələlərə dair geniş spektrli diskussiyalar, fikir mübadiləsi və müzakirələr aparmaq baxımından ən əlverişli format

---

[1] Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət.

[2] “Azərbaycan” qəzeti, 2011, 7 aprel

[3] “Azərbaycan” qəzeti, 2011, 9 aprel

olmuşdur.

Ölkəmiz bu gün beynəlxalq münasibətlərdə, beynəlxalq mədəni əməkdaşlıqda fəal iştirak edir, həyata keçirilən bir sıra qlobal layihələrə ev sahibliyi edir. Müxtəlif səviyyəli və müxtəlif formatlı təmasları və ünsiyyəti davam etdirmək, dünyada mədəniyyətlərarası münasibətlərin, sülhün və əməkdaşlığın inkişafına layiqli töhfə vermək, baş verən mədəni proseslərin üstünlüklərindən ölkəmizin maraqları naminə faydalanmaq üçün onların mahiyyətini dərk etmək, dialoqa girdiyimiz tərəfdaşlarımızın davranış qaydalarını, psixologiyasını, məqsəd və maraqlarını dərindən bilmək, dünya mədəniyyətinin retrospektiv inkişaf meyllərini hərtərəfli başa düşmək tələb olunur.

***Problemin işlənmə dərəcəsi.*** Milli mədəniyyətlərin qarşılıqlı münasibətləri və təsiri, mədəniyyətlərarası dialoq, milli və ümumbəşəri dəyərlərin əlaqəsi, mədəniyyət və sivilizasiya, mədəni müxtəliflik kimi bəşəri problemlər ictimai elm nümayəndələrinin daim tədqiq və müzakirə etdikləri elmi problemlərdəndir. Xüsusən qloballaşma proseslərinin genişlənməsi və milli mədəniyyətlərə, dünyanın mədəni müxtəlifliyinə onların təsirinin artması şəraitində bu problemlərə maraq və diqqət daha da artmışdır. Dünya humanitar elmində mədəni qloballaşma və mədəniyyətlərin dialoqu ilə bağlı bir çox ölkələrdə ciddi tədqiqatlar işıq üzü görmüşdür. T.Parsons, U.Postoun, R.Robertson, M.Kastels, A.Giddens, E.Hiddens, F.Kessidi, U.Makbrayd, A.Toynbi, M.Hatəmi, K.Çandra, Y.Brunsvik, A.Dansi, K.Kuşner, R.Brisil, M.Gidikunst, M.Guirdham, E.Holl, M.Holl, A.Hopkins, L.Horrison, V.Kumilska, R.Lerner, L.Samovar, X.Aşırova, A.Abulmaqdn, Z.Bjezinski, U.Bek, S.Hanqtinqton, R.Skollon, A.Smit, N.Stevensen və başqa tədqiqatçıların əsərlərində qloballaşmanın mədəni aspektləri, mədəniyyətlərin gələcək taleyi ilə bağlı müxtəlif elmi-nəzəri yanaşmalar öz əksini tapmışdır.

Müasir dövrdə mədəniyyətlər arasında münasibətlərdə baş verən prosesləri Qərb ədəbiyyatında müxtəlif terminlərlə (konvergensiya, diffuziya, inteqrasiya, yaxınlaşma, qarşılıqlı təsir, qarşılıqlı əlaqə və s.) adlandırırlar. Eyni zamanda mədəni əlaqələr problemi üzrə bir sıra konsepsiyalar, nəzəriyyələr də mövcuddur (qlobal oykumena, qlobal homogenləşmə, hibridləşmə, mədəni imperializm və s.).

H.S.Hantinqtonun "Sivilizasiyaların toqquşması və yeni dünya düzəni" adlı kitabı[4] mədəniyyətlərin dünya proseslərində roluna dair baxışları özündə əks etdirən mühüm hadisə oldu. O, müasir sivilizasiya birliklərinin təşəkkül tapmasında mədəniyyət faktoruna diqqəti cəlb edərək, uzun əsrlər ərzində beynəlxalq münasibətlərdə əsas rol oynamış, "millətlərarası – dövlətlərarası münasibətlər"in tədricən mədəni və sivilizasiyon birliklər arası münasibətlərlə əvəzlənəcəyini proqnozlaşdırmışdır. H.Hantinqtonun sivilizasiyalararası münaqişələr nəzəriyyəsi beynəlxalq mədəni proseslərdə baş verən proseslərin gələcək tədqiqi üçün yeni təkan verdi. O, "soyuq müharibə"dən sonrakı dünyada ideoloji qarşıdurmanın yerini etnik, mədəni və dini ziddiyyətlərin tutduğunu iddia edir.

Qeyd etmək lazımdır ki, qloballaşma şəraitində milli mədəniyyətlərin qarşılıqlı münasibətlərinə yanaşmada qərb qlobalistikasında iki nəzəri baxış özünü göstərir. Pozitivist yanaşmanın tərəfdarları qloballaşmanın mədəniyyətlər arasında sərhəd və maneələri getdikcə aradan qaldırdığını, milli mədəniyyətlər arasında qarşılıqlı əlaqələri gücləndirdiyini və bununla da dünyanın mədəni müxtəlifliyini zənginləşdirdiyini vurğulayırlar.

Pessimist yanaşma tərəfdarları (antiqlobalistlər) isə əksinə, qloballaşma şəraitində dünyanın mədəni müxtəlifliyinə qloballaşmanın yaratdığı təhlükələri qabardaraq milli mədəniyyətlərin gələcək taleyi ilə bədbin fikirlər söyləyirlər (P.Berqli, R.Robertson, U.Bek). Lakin hər iki fikrin tərəfdarları qloballaşmanın yaratdığı çağırışlara adekvat cavab vermək üçün ən optimal yolun – mədəniyyətlər və sivilizasiyalar arasında dialoq olduğunu təsdiq edirlər. Dissertasiyada, yeri gəlmişkən, bu baxışlara da münasibət bildirilmişdir.

Ən xarakterik yanaşmalardan biri də mədəni qloballaşmanın nəticələrini həddən artıq şişirdən ifrat yanaşmadır. Bu yanaşmanın tərəfdarlarının (Z.Bzejinski, H.Hantinqton, Qrey və b.) fikrincə, qloballaşma elə amerikalaşma forması olan qərbləşmə deməkdir. Eyni zamanda, bu müəlliflər qərb mədəniyyətinin üstün mövqe qazanmasına qarşı dünyada mənfi əhval-ruhiyyənin də yaranmasını etiraf edirlər.

Qloballaşmanın mədəni aspektlərinə münasibətdə çox müxtəlif və əksər hallarda bir-birini inkar edən

---

[4] Хантингтон С. Столкновение цивилизаций. М.: АСТ, СПб, Terra Fantastica, 2003, 603 с.

mövqelərin mövcudluğu məsələnin nə qədər mürəkkəb və ziddiyyətli olduğunu göstərir.

Mədəniyyətlərin qarşılıqlı münasibətlərinin qlobalistika və kulturologiya, beynəlxalq hüquq və dünya siyasəti kontekstində araşdırmağın vacibliyinə beynəlxalq səviyyədə qəbul edilmiş bir sıra sənədlərdə də diqqət yetirilmişdir. Xüsusən sivilizasiya və qloballaşmanın müqayisəli öyrənilməsi üzrə Beynəlxalq Komitənin və Sivilizasiyalar Alyansının yaradılması, BMT Baş Məclisinin 2001-ci ildə Sivilizasiyaların dialoqu üçün qlobal proqrama dair qətnaməsi, 2011-ci il YUNESKO tərəfindən "Mədəniyyətlərin dialoqu" ili elan edilməsi mədəniyyətlərarası münasibətlərin daha yüksək və sistemli səviyyədə öyrənilməsinin davam etdirilməsi vacibliyini qarşıya qoyur. Bunun ən bariz nümunəsi kimi, 2002-ci ildə BMT-nin himayəsi altında və 18 ölkənin aparıcı alimlərinin iştirakı ilə hazırlanmış "Maneələri dəf edərək, Sivilizasiyalararası dialoq" kitabını göstərmək olar.[5]

Son dövrlərdə qloballaşma şəraitində mədəniyyətlərin qarşılıqlı münasibətləri, mədəniyyətlərarası dialoq problemləri Rusiyanın beynəlxalq münasibətlər və qlobal siyasətlə məşğul olan tədqiqatlarında əsas araşdırma predmetinə çevrilmişdir. Bu problemlərlə hətta məxsusi məşğul olan bir çox dövlət və qeyri-dövlət tədqiqat qurumları fəaliyyət göstərir. Bəzi alimlər istisna olmaqla (məsələn, Ə.Hüseynov, Y.Yakovets və s.) qlobalistika ilə məşğul olan əksər Rusiya tədqiqatçıları (A.Zinovyev, İ.Vasilenko, V.Lisiçkin, L.Şelepin, A.Panarin, Q.Bratimov, N.Qorski, N.Astaşkina, N.Lapin, S.Lixaçev, B.Malaxov, B.Mejuyev, N.Nikandrov, A.Utkin, A.Şendrik) mədəni qloballaşma proseslərinə ifrat və birtərəfli mövqedən yanaşaraq bu prosesləri Amerika standartlarının zorla qəbul etdirilməsi kimi qələmə verirlər. Məsələn, antiqlobalizmin əsas tərəfdarlarından biri olan A.Zinovyev qloballaşmanı ABŞ-ın başçılıq etdiyi qərb dünyasının bütün planeti fəth etmək və bütün bəşəriyyət üzərində öz hökmranlığını təmin etmək cəhdi kimi göstərir. Qlobalizmin ən qatı tənqidçilərindən biri də A.Panarindir.

Rusiyada qloballaşmanın mədəniyyətlərarası münasibətlərdə təzahürünə, mədəniyyətlər arasında dialoqa dair fikirləri özündə əks etdirən bir çox monoqrafiyalar, kollektiv nəşrlər işıq üzü görmüş, mədəniyyətlərarası dialoqa dair keçirilən konfransların materialları nəşr edilmişdir.[6] Bəzi müəlliflər istisna olmaqla, əksər tədqiqatçıların əsərlərində mədəniyyətlərarası dialoqda Rusiyanın xüsusi missiyasının nəzəri cəhətdən əsaslandırılması, dünya siyasətində aparıcı mövqeyinin ideoloji-kulturoloji cəhətdən bərpa edilməsi məqsədi güdülür. Bununla da əslində həmin tədqiqatların Rusiyanın böyük dövlətçilik strategiyasına xidmət etdiyi aydın görünür.

Azərbaycan ictimai-humanitar elmi də tədqiq edilən məsələlərə biganə qalmamış, ölkəmizdə son dövrlərdə bu problemlərə dair bir sıra maraqlı əsərlər işıq üzü görmüşdür. Əslində bu heç də təsadüfi deyildir. Azərbaycan dövləti bu gün dünyada geniş vüsət alan beynəlxalq mədəni əməkdaşlıqda yaxından iştirak edir. Ölkəmizin son dövrlərdə bir sıra nüfuzlu beynəlxalq mədəni, humanitar tədbirlərə ev sahibliyi etməsi dövlətimizin xalqlar arasında, mədəniyyətlər arasında dialoqa necə önəm verməsinin əyani sübutudur.

Azərbaycan alimlərindən R.Mehdiyevin, R.Aslanovanın, S.Xəlilovun, S.Məmmədəliyevanın, A.Şükürovun, İ.Hüseynovanın və b. müəlliflərin əsərlərində,[7] kollektiv monoqrafiyalarda qloballaşmanın

---

[5] Ариспя Л., Аширова Х., Абульмагд А. Преодолевая барьеры. Диалог между цивилизациями. Пер. с анг. /Под ред. С.Капицы, М.: Изд. Логос, 2002, 192 с.

[6] Гидденс Э. Ускользающий мир: как глобализация меняет нашу жизнь. М.: «Весь мир», 2004, Глобализация // Глобалистика. Энциклопедия. М.: Радуга, 2003, Глобализация. Конфликт или диалог цивилизаций? М.: Новый Век, 2002.; Глобализация и мултикультурализм. Ответ.ред. Н.С.Карабаева, М.: Российский Университет, 2005, Грани глобализации. М., 2003.; Диалог культур в глобализируюшемся мире. М.: Наука, 2005, Зиновъев А.А. Глобальное сверхобщество и Россия. Минск-Москва, АСТ, 2000, Мультикультурализм и трансформация постсоветских обществ, М., 2002, Диалог культур и цивилизаций, М.: Наука, 2006, Яковец Ю.В. Глобализация и взаимодействие цивилизаций. М.: Экономика, 2003.

[7] Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. B.: XXI YNE, 2005, Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. B.: Şərq-Qərb, 2008; Mehdiyev R. XX əsrdə milli dövlətçilik. B.: XXI YNE, 2003, MehdiyevR. İctimai və humanitar elmlər: zaman kontekstində baxış. B.: Azərbay-can, 2010; Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. B.: Elm, 2004.; Aslanova R. Müasir dövlət və Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20 illik ildönümü işığında dövlətşünaslıq elmi. B.:

milli mədəniyyətlərə təsiri, mədəni qloballaşmanın mahiyyəti, mədəniyyətlərarası münasibətlər, mədəniyyətlərin dialoqu, mədəni müxtəliflik, multikulturalizm kimi elmi problemlər, Azərbaycann beynəlxalq münasibətlər sistemində yeri və rolu əsas tədqiqat problemi olmuşdur. Müxtəlif konfrans və simpoziumlarda bu problemlər ətrafında ciddi müzakirələr aparılmışdır.[8] Adı çəkilən əsərlərdə Azərbaycanın beynəlxalq mədəni əlaqələri, beynəlxalq mədəni əməkdaşlıqda yeri və rolu ilə bağlı tədqiqat üçün ciddi əhəmiyyət kəsb edən maraqlı materiallar və ümumiləşdirmələr mövcuddur. Bununla yanaşı etiraf edilməlidir ki, qloballaşma prosesində milli mədəniyyətlərin perspektivləri, qloballaşmanın beynəlxalq mədəni əlaqələrin inkişafına təsiri yenə də aktual, lakin kifayət qədər öyrənilməmiş elmi və sosial-siyasi problem olaraq qalmaqdadır. Əsas problemlərdən biri də Azərbaycanın bütün dünyada mədəniyyətlərin dialoqunun inkişaf etdirilməsi, mədəni müxtəlifliyin qorunması istiqamətində son illərdə həyata keçirdiyi siyasətin, bu sahədə əldə etdiyi uğurlu təcrübənin elmi cəhətdən öyrənilməsidir. Diqqəti cəlb edən digər məqam, adı çəkilən problemlərin tədqiqində təşəbbüsün filosofların və qismən də kulturoloqların əlində olmasıdır. Yuxarıda adı çəkilən əsərlərin müəlliflərinin də əsasən fəlsəfə elminin nümayəndələrinin olması, məsələnin fəlsəfi aspektlərdən təhlil edilməsinin əyani sübutudur. Politoloqların, sosioloqların, tarixçilərin, beynəlxalq münasibətlər və beynəlxalq hüquq üzrə mütəxəssislərin problemin həllində yaxından iştirakına, müasir inteqrasiya və qloballaşma şəraitində Azərbaycan mədəniyyətinin dövlətimizin xarici siyasətinin həyata keçirilməsində mühüm amil kimi nəzərdən keçirilməsinə böyük ehtiyac vardır. Bu zaman bir amili də nəzərə almaq lazımdır ki, qloballaşan dünyada ölkənin rəqabətə davamlılıq qabiliyyəti onun mədəniyyət siyasətindən, beynəlxalq arenada formalaşdırdığı imicindən çox asılıdır. BMT və YUNESKO-nun sənədlərində də mədəniyyət milli və beynəlxalq inkişaf siyasətlərinin, beynəlxalq inkişaf naminə əməkdaşlığın strateji tərkib hissəsi kimi qeyd olunur. Mədəniyyətin beynəlxalq münasibətlərdə rolunun artmasını sübut edən göstəricilərdən biri də xarici mədəniyyət siyasəti, mədəni diplomatiya kimi terminlərin beynəlxalq münasibətlər nəzəriyyəsində vətəndaşlıq hüququnun qazanmasıdır. Mədəni diplomatiya (mədəniyyət diplomatiyası) isə diplomatiyanın ayrılmaz elementinə və istiqamətinə çevrilmişdir.

Göründüyü kimi, beynəlxalq mədəni münasibətlərdə cərəyan edən proseslər çox geniş elmi-nəzəri araşdırmalar tələb edir. Baş verən dəyişikliklərə adekvat olaraq yeni, daha çevik təfəkkür və dünyagörüşü sisteminin formalaşdırılmasına ehtiyac duyulur. Xüsusən sivilizasiyaların və mədəniyyətlərin dialoqu məsələsi bu gün bütün dünyada siyasətçilər, alimlər, mədəniyyət və din xadimləri arasında ən geniş müzakirə olunan məsələlərdən birini təşkil edir.

Prezident İlham Əliyev 2012-ci ilin oktyabrında Bakıda keçirilmiş II Beynəlxalq Humanitar Forumda çıxışı zamanı bu məsələlərə diqqəti cəlb edərək demişdir ki, həm siyasətçilərin, həm ictimai xadimlərin, vətəndaş cəmiyyəti və media nümayəndələrinin məsuliyyəti ondan ibarətdir ki, müsbət meylləri, müsbət təcrübəni işıqlandırmaq lazımdır. Biz fəaliyyətimizi bu müsbət təcrübə əsasında qurmalıyıq. Hesab edirəm ki, əgər bax bu yanaşma üstünlük təşkil edərsə, o zaman dünya daha da əmniyyətli olacaqdır və xalqlararası əlaqələr müsbət, sağlam zəmində qurulacaqdır[9].

Həmin Forumun qəbul etdiyi yekun sənəddə qloballaşma prosesinə ədalətli xarakter verilməsi vacibliyi qeyd olunmuş, bütün ölkələrin siyasi və elmi elitasına, nüfuzlu beynəlxalq strukturlara dinamik qloballaşan cəmiyyətdə humanitar problemlərə xüsusi diqqət yetirməyə çağırış öz əksini tapmış, XXI əsrdə qloballaşma proseslərinə yeni metodoloji yanaşmalar, postmodernist mədəniyyətdə ənənəvi dəyərlər sistemi kimi bu problemlərin nəzərdən keçirilməsinin vacibliyi vurğulanmışdır.

Forum, “hər bir cəmiyyətin ənənəvi xüsusiyyətlərini nəzərə alaraq onun inkişaf prosesinin özünəməxsusluğunu və müxtəlifliyini” dərk edərək beynəlxalq forumları və müxtəlif humanitar təşkilatları, dövlətlər, vətəndaş cəmiyyətləri və konfessiyalar arasında tolerantlıq mühiti yaratmağa və sivilizasiyalararası münaqişələrin qarşısını almağa xidmət edən əsil mədəniyyətlərarası dialoqun gerçək-

---

Azərnəşr, 2011, Hüseynova İ. Dövlətçilik naminə. B.: Bakı Universiteti Nəşriyyatı, 2001; Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. B.: Təhsil, 2004.; Xəlilov (Ulusel) R. Heydər Əliyev və Azərbaycan – Dünya münasibətləri: siyasətdən mədəniyyətədək. B.: İdeal-Print, 2010; Xəlilov (Ulusel) R. Qloballaşma və harmoniya fəlsəfəsi. B.: Elm, 2005; Xəlilov (Ulusel) R. Mədəniyyətlərin ipək yolu. Azərbaycandan dünya məkanına. B.: Təhsil, 2003; Xəlilov S. Sivilizasiyalararası dialoq. B: Adiloğlu., 2009; Xəlilov S. Şərq və Qərb. Ümumbəşəri ideala doğru. B.: Azərbaycan Universiteti, 2004; Məmmədəliyeva S. Qloballaşma dövründə mədəniyyətin fəlsəfi aspektləri. B.: Nurlar, 2006; Şükürov A. Qloballaşmış cəmiyyətlər: dünən, bu gün və sabah. B.: Azərb. Univ. Nəşr., 2006.

[8]Взаимоотношения культур в условиях глобализации. Материалы международной научной конференции, посвященной памяти общенационального лидера азербайджанского народа Гейдар Алиева. М.: Канон+Реабилитация, 2010.

[9] “Azərbaycan” qəzeti, 2012, 5 oktyabr

ləşdirilməsi məqsədi ilə forumlar, konfranslar, müzakirələr və "dəyirmi masalar"ın təşkilinə davamlı olaraq təşəbbüs göstərməyə çağırmış, dünyanın müxtəlif regionlarında getdikcə artan qarşıdurma meylləri ilə yanaşı əməkdaşlığa və qarşılıqlı anlaşmaya zəmin yaradan hazırkı proseslərin universitetlərdə, elmlər akademiyalarında və ayrı-ayrı fondlarda elmi fəaliyyətin diqqət mərkəzində olması zəruriliyini göstərmişdir.[10]

Bu fikirlər 2013-cü il 31 oktyabr – 1 noyabr tarixlərində III Bakı Beynəlxalq Humanitar Forumun çərçivəsində aparılmış diskussiyalarda da səslənmişdir. Forumun iştirakçıları qəbul etdikləri Bəyannamədə mədəniyyətlərin dialoqunun və tolerantlıq mühitinin formalaşdırılması məqsədilə beynəlxalq strukturları və müxtəlif humanitar təşkilatları mütəmadi olaraq forum, konfrans, diskussiya və dəyirmi masalar keçirməyə çağırmışdı.[11]

***Tədqiqatın obyektini*** qloballaşma şəraitində Azərbaycan Respublikasının mədəniyyətlər arasında dialoqda iştirakı təşkil edir. ***Tədqiqatln predmetinə*** müasir dünya siyasətində, beynəlxalq münasibətlərdə mədəniyyət amilinin rolu, mədəniyyətlərin dialoqunun təşkilində və genişlənməsində Azərbaycanın iştirakının müxtəlif aspektləri, Azərbaycan Respublikasının xarici mədəniyyət siyasətinin əsas istiqamətləri daxildir.

***Tədqiqatın məqsəd və vəzifələri.*** Tədqiqatın qarşısında qoyulan əsas məqsəd müasir qlobal siyasi, iqtisadi, humanitar-mədəni proseslər kontekstində Azərbaycanın beynəlxalq mədəni əməkdaşlıqda və mədəniyyətlərarası dialoqda rolunun işıqlandırılmasından, mədəniyyətlərin və sivilizasiyaların dialoqunun genişləndirilməsi üçün həyata keçirdiyi siyasətin elmi təhlilindən ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

–Müasir dünya siyasətində, beynəlxalq və dövlətlərarası münasibətlərdə mədəniyyət amilinin rolunun təhlil edilməsi, qloballaşma proseslərinin mədəniyyətə təsiri məsələlərinin öyrənilməsi. Bu kontekstdə mədəni qloballaşmanın müxtəlif mümkün nəticələrini, gələcək perspektivlərini özündə əks etdirən konsepsiyaların araşdırılması;

–Qlobal mədəni proseslər kontekstində mədəniyyət amilinin iqtisadi, siyasi, sosial-demoqrafik, humanitar və b. sahələrə təsiri məsələsinə münasibət bildirilməsi;

–Qloballaşma proseslərinin milli, lokal mədəniyyətlərə təsiri, dünyanın mədəni müxtəlifliyi, milli mədəniyyətlərin identikliyinin qorunması ilə bağlı problemlərin araşdırılması;

–Müasir dövrdə etnomilli problemlərin həllinin mümkün variantlarından biri olan multikulturalizm modelinin təhlil edilməsi, multikulturalizmə münasibətdə müxtəlif mövqelərin işıqlandırılması. Bir konsept kimi multikulturalizmin cəmiyyətdaxili və beynəlxalq səviyyələrinin müqayisə edilməsi;

–Mədəniyyətlərin dialoqu və mədəni müxtəlifliyin qorunması kontekstində beynəlxalq hüquqlar sistemində mədəni hüquqların yerinin və əhəmiyyətinin açıb göstərilməsi, qloballaşmanın mədəni hüquqlara təsirinin müəyyənləşdirilməsi;

–İnteqrasiya və qloballaşma proseslərinin genişlənməsi prosesində müxtəlif mədəniyyətlər arasında qarşılıqlı münasibətlər və qarşılıqlı təsir, qarşılıqlı zənginləşməsi problemlərinin araşdırılması;

–Dövrümüzün çağırışlarına adekvat cavab vermək, qlobal problemlərin həlli üçün sivilizasiyaların və mədəniyyətlərin dialoqunun əhəmiyyətinin açıb göstərilməsi;

–Dini və milli münaqişələrin, terrorizmin, separatizmin aradan qaldırılmasında dialoqun imkanlarının müəyyənləşdirilməsi;

–Mədəniyyətlərin dialoqunu və yaxınlaşmasını təmin edən universal (ümumbəşəri) dəyərlərin əhəmiyyətinin vurğulanması, milli, etnik, sivilizasiyon dəyərlərlə bəşəri dəyərlər arasında balansın müəyyənləşdirilməsi;

–Mədəniyyətlərin qarşılıqlı əlaqəsində və dialoqunda, Azərbaycanın müasir dünyaya inteqrasiyasında tarixi-mədəni irsimizin rolunun işıqlandırılması;

–Heydər Əliyevin dünyagörüşündə, nəzəri irsində mədəniyyətlərin qarşılıqlı münasibətlərinə, dialoquna dair məsələlərin təhlili;

–Milli mədəniyyətimizin dünya mədəniyyətinə inteqrasiyası istiqamətində qazanılmış təcrübənin təhlili;

–Azərbaycanı mədəniyyətlərin dialoqu məkanına çevirən amillərin təhlili, sivilizasiyaların dialoq və əməkdaşlığının dərinləşməsində, müxtəlif qlobal humanitar problemlərin həllində ölkə rəhbərliyinin təşəbbüsü ilə keçirilən beynəlxalq forum və tədbirlərin əhəmiyyətinin açılması;

–Heydər Əliyev Fondunun milli mədəniyyətimizin dünyada təbliğində və tanıdılmasında, mədəniyyətlərin dialoqunun genişlənməsi istiqamətində həyata keçirdiyi fəaliyyətin işıqlandırılması;

---

[10]Bakı Beynəlxalq Humanitar Forumunun Bəyannaməsi. // "Azərbaycan" qəzeti, 2012, 6 oktyabr.

[11] "Azərbaycan" qəzeti, 2013, 2 noyabr

–Mədəniyyətlərin dialoqunda turizmin imkanlarının araşdırılması; Azərbaycanda beynəlxalq mədəni turizmin inkişaf perspektivlərinin öyrənilməsi;

–Mədəniyyətlər arasında dialoqun genişləndirilməsi, dünyada mədəni müxtəlifliyin qorunub saxlanılması sahəsində YUNESKO-nun fəaliyyətinə nəzər salınması, bu kontekstdə Azərbaycanın təşkilatla qarşılıqlı əlaqələrinin işıqlandırılması;

–Tədqiqatın nəticələrinin ümumiləşdirilməsi, tövsiyə və təkliflərin irəli sürülməsi.

***Tədqiqatın nəzəri-metodoloji əsasları.*** Tədqiqatın bazasını ilk növbədə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezienti İlham Əliyevin çıxış və nitqlərində, cəmiyyətdə və beynəlxalq arenada mədəniyyətin funksional rolu, mədəniyyətlərarası dialoq və əməkdaşdığın müasir dövlətin xarici siyasətində yeri, müstəqil Azərbaycanın bu prosesdə iştirakı ilə bağlı irəli sürülmüş dəyərli fikirlər və konseptual müddəalar, eləcə də bu sahədə mövcud olan fundamental elmi əsərlər təşkil edir.

Dissertasiyada dünya mədəniyyətinin inkişaf meyllərinə, qloballaşmanın milli mədəniyyətlərə təsirinə, mədəni müxtəlifliyin və mədəniyyətlərarası dialoqun perspektivlərinə dair ən müxtəlif yanaşmalar sistemləşdirilmiş və müqayisəli şəkildə təhlil edilmişdir.

Mədəniyyət sahəsində beynəlxalq və milli hüquqi-normativ sənədlərdə, beynəlxalq təşkilatların və Azərbaycanın müvafiq icra strukturlarının işçi sənədlərində, elmi konfrans, seminar və forumların materiallarında, görkəmli siyasətçilərin, dövlət xadimlərinin çıxışlarında öz əksini tapmış müddəalar, faktlar, qiymətləndirmələr və tövsiyələr müasir mədəniyyətlərin dialoqunun vəziyyəti və perspektivləri ilə bağlı aydın təsəvvür yaratmaqda, nəticələrin arqumentləşdirilməsində mühüm rol oynamışdır.

Tədqiqatda qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün müqayisəli və tarixi analiz, struktur-funksional, sistem metodlarından istifadə edilmişdir.

Azərbaycan dövlətinin mədəni əməkdaşlıq və dialoq siyasətində hazırda mədəniyyətlərarası münasibətlərdə baş verən meyllərin və xarici dövlətlərin mədəni dialoqun təşkili sahəsində qazandıqları təcrübənin nə dərəcədə istifadə edildiyini öyrənmək baxımından müqayisəli təhlil metodu tətbiq edilmiş, ölkəmizin mədəniyyətlərin dialoqunda, dünya mədəniyyətinə inteqrasiyasında rolunu müəyyənləşdirmək məqsədi ilə tarixilik və tarixi analiz metodlarından istifadə edilmişdir.

Struktur-funksional təhlil metodu tətbiq edilməklə beynəlxalq arenada mədəniyyətlərarası əməkdaşlıq və dialoqda iştirak edən subyektlərin fəaliyyəti, müvafiq qərarların qəbul edilməsi və reallaşdırılması mexanizmlərinin səmərəliliyi nəzərdən keçirilmişdir.

Sistemli təhlil metodu mədəniyyət siyasətinin dövlətin ümumi strateji kursunda yerini və rolunu müəyyənləşdirməyə, mədəni dialoqda ölkənin geosiyasi, tarixi, kulturoloji, iqtisadi, siyasi resurslarını üzə çıxarmağa imkan verir. Bu metodun köməyi ilə dialoqda iştirak edən subyektlərin ümumi mənafe və məqsədlərini müəyyənləşdirmək də mümkün olmuşdur.

Tədqiqat aparılarkən müxtəlif elmlərin (fəlsəfə, sosiologiya, hüquq, politologiya, kulturologiya və s.) mədəniyyətə dair elmi və konseptual prinsiplərini və nəticələrini ümumiləşdirmək üçün fənlərarası metodoloji yanaşmadan istifadə edilmişdir.

***Tədqiqatın mənbə bazası.*** Tədqiqat aparılarkən əsas mənbə bazası kimi beynəlxalq və milli səviyyədə mədəniyyətə, mədəniyyətlərin dialoquna dair qəbul edilmiş normativ-hüquqi sənədlərdən istifadə edilmişdir. BMT-nin, YUNESKO-nun, Avropa Şurasının, İKT, İSESKO-nun qəbul etdiyi konvensiya, qətnamə, bəyannamə, məruzə və s. xarakterli normativ aktlarda beynəlxalq münasibətlərdə mədəniyyətlərarası dialoq, mədəni müxtəliflik, mədəni hüquqlar və digər məsələlərə dair konseptual məsələlər öz əksini tapmışdır. Bu məsələlər həm beynəlxalq təşkilatların ayrı-ayrı sənədlərində, həm də müxtəlif toplularda işıq üzü görmüş materiallarda işıqlandırılmışdır.

Azərbaycan dövlətinin mədəniyyətlərin dialoqunda iştirakı ilə bağlı məqamlar milli qanunvericilik aktlarında, toplularda, dövlət strukturları və ictimai qurumların rəsmi saytlarında mövcuddur.

Ümummilli liderimiz Heydər Əliyevin mədəniyyətlə bağlı fikirləri, müxtəlif vaxtlarda Azərbaycanda keçirilmiş mədəniyyətlərarası dialoq forumları, humanitar forumların materialları, qətnamələri, həmin tədbirlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışları tədqiqatın əsas mənbəyini təşkil edir.[12]

Dissertasiya yazılarkən Azərbaycanın müxtəlif dövlət təşkilatlarının, xüsusən, AR NTN-nin sənədlərindən, mətbuat orqanlarının və internet saytlarının materiallarından da geniş istifadə edilmişdir.

***Tədqiqatın elmi yeniliyi.*** Təqdim olunan dissertasiya müasir mərhələdə mədəniyyətlər və sivilizasiyalar arasında dialoq prosesində Azərbaycanın iştirakının kompleks şəkildə araşdırıldığı ilk

---

[12] Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. Çoxcildlik, B.: Azərbaycan, 1997-2013-ci illər.; Əliyev İ. İnkişaf – məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr. Çoxcildlik, B.: Azərbaycan, 2008-2012-ci illər.

tədqiqat əsəri hesab oluna bilər.

Tədqiqatda beynəlxalq münasibətlərdə və dünya siyasətində mədəniyyət amilinin rolu geniş araşdırılmış, inteqrasiya və qloballaşma proseslərinin genişləndiyi şəraitdə milli mədəniyyətlərin gələcək taleyi nəzərdən keçirilmişdir. Mədəniyyətlərin dialoqu məsələsinə dair müxtəlif konsepsiyalar, mədəni dialoqun müxtəlif aspektləri təhlil edilmiş, qlobal ziddiyyətlərin aradan qaldırılmasında, sülhün və əməkdaşlığın təmin edilməsində dialoqun vacibliyi qeyd edilmişdir.

Əsərdə mədəniyyətlərin dialoqunun genişlənməsində, mədəni müxtəlifliyinin qorunmasında multikulturalizm modelinin səciyyəvi rolu işıqlandırılmış, beynəlxalq mədəni hüquqların əhəmiyyəti vurğulanmışdır.

Azərbaycanın mədəniyyətlərin və sivilizasiyaların dialoqunda iştirakını şərtləndirən tarixi, mənəvi-mədəni və coğrafi-siyasi amillər müəyyənləşdirilmiş, milli mədəniyyətimizin dünya mədəniyyətinə inteqrasiyası, qarşılıqlı təsiri ilə bağlı məsələlərin elmi təhlili verilmiş, Azərbaycan xalqının tarixən formalaşmış mədəni dəyərlərinin bəşər mədəniyyətinin inkişafında və zənginləşməsində əhəmiyyəti göstərilmişdir.

Milli-mənəvi dəyərlərimizin dünyada tanıdılmasında və təbliğində, mədəniyyətimizin dünya mədəniyyətinə inteqrasiyasında Azərbaycan xalqının milli lideri Heydər Əliyevin tarixi xidmətləri işıqlandırılmışdır.

Azərbaycan dövlətinin xarici siyasət kursunda, beynəlxalq əlaqələrində mədəniyyət diplomatiyasının yeri və rolu işıqlandırılmış, ölkəmizin dünyada nüfuzunun və imicinin möhkəmləndirilməsində milli mədəniyyətimizin potensialı təhlil edilmişdir.

Müasir dövrdə beynəlxalq mədəni münasibətlərdə Azərbaycanın yeri və rolu müəyyənləşdirilmiş, ölkənin beynəlxalq mədəni əməkdaşlığa verdiyi töhfələr işıqlandırılmışdır.

Azərbaycan dövlətinin mədəniyyətlərin dialoqu sahəsində həyata keçirdiyi kompleks tədbirlər sistemləşdirilmiş, bu sahədə qazanılmış təcrübə ümumiləşdirilmişdir. Bu kontekstdə "Bakı prosesi"nin beynəlxalq mədəni əməkdaşlığın inkişafına təsiri öyrənilmiş, ölkəmizin mədəniyyətlərin dialoqunun və humanitar əməkdaşlığın reallaşmasına xidmət edən müxtəlif təşəbbüsləri və layihələrinin beynəlxalq aktuallığı vurğulanmışdır.

***Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti.*** Təqdim olunan dissertasiya işi Azərbaycanın mədəniyyətlərin dialoqunda iştirakı, dialoq prosesinin inkişaf etdirilməsi ilə bağlı mühüm konseptual məsələləri özündə ehtiva etdiyindən bir sıra səciyyəvi xüsusiyyətləri ilə fərqlənir. Bu, hər şeydən əvvəl, beynəlxalq münasibətlərdə mədəniyyət faktorunun rolunun getdikcə artmasının, Azərbaycan dövlətinin mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı əlaqələrində fəal subyekt rolunda çıxış etməsinin konstatasiyasıdır.

Artıq qeyd edildiyi kimi, qloballaşma şəraitində mədəniyyətlərin qarşılıqlı münasibətlərinə Azərbaycanın beynəlxalq mədəni əməkdaşlıqda və dialoqda oynadığı roluna dair məsələlərin beynəlxalq münasibətlər nəzəriyyəsi və qlobal siyasət kontekstində öyrənilməsi aktual elmi problem olaraq qalır. Təqdim olunan dissertasiya adı çəkilən problemlərin tədqiqi baxımından metodoloji və faktoloji əsas ola bilər. Dissertasiyanın müddəaları, orada qoyulmuş məsələlər müasir dünyada milli mədəniyyətlərin qarşılıqlı münasibətlərinin öyrənilməsi, Azərbaycanın mədəniyyətlərin dialoqunda iştirakının tədqiq edilməsi nöqteyi-nəzərindən də faydalı ola bilər.

Dissertasiyada qloballaşmanın mədəni aspektləri, multikulturalizm, mədəni hüquqlar, mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı münasibətləri, mədəniyyətlərarası dialoqun mahiyyəti və məqsədləri, Azərbaycan dövlətinin mədəniyyətlərin və sivilizasiyalararası dialoqun genişlənməsi üçün həyata keçirdiyi siyasət və b. məsələlər işıqlandırıldığından, bu məsələlərlə maraqlanan mütəxəssislər və geniş oxucu kütləsi üçün maraq kəsb edə bilər.

Dissertasiyanın materiallarından mədəniyyət və beynəlxalq münasibətlər, mədəniyyətlərin qarşılıqlı münasibətləri və dialoqu, qloballaşma və mədəniyyət, mədəniyyət siyasəti, Azərbaycanın mədəni əlaqələri və s. mövzularda dərs vəsaitlərinin, referat və kurs işlərinin hazırlanmasında istifadə oluna bilər.

Tədqiqatda öz əksini tapmış məsələlər mədəniyyət siyasətini həyata keçirən və beynəlxalq mədəni əməkdaşlıqda iştirak edən dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının öz fəaliyyətlərini təkmilləşdirməsi baxımından da mühüm vasitə ola bilər.

***Dissertasiyanın aprobasiyası.*** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası İnsan Hüquqları İnstitutunda müzakirə edilmiş və müdafiəyə tövsiyə olunmuşdur. Dissertasiyanın ümumi məzmununa dair müəllifin 2 monoqrafiyası və 39 məqaləsi çapdan çıxmışdır ki, onların 10-u xarici ölkələrin nüfuzlu elmi nəşrlərində işıq üzü görmüşdür. Tədqiqatın nəticələri ilə bağlı müəllif müxtəlif elmi seminar və konfranslarda məruzələrlə çıxış etmişdir.

***Dissertasiyanın strukturu.*** Dissertasiya işi giriş, beş fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat

siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Mədəniyyət və müasir beynəlxalq münasibətlər"** adlanan birinci fəsli dörd paraqrafdan ibarətdir. "Müasir dünya proseslərində mədəniyyət amili" adlı birinci fəsildə mədəniyyətin müasir dünya proseslərində və beynəlxalq münasibətlərdə yerinə nəzər salınmış, mədəniyyətə dair müxtəlif konsepsiyalar və yanaşmalar şərh edilmişdir. Burada mədəniyyətin elmi-nəzəri mahiyyətinə varmadan onun maddi və mənəvi dəyərlər sistemi yaratmış insanların fəaliyyətinin məcmu nəticəsi kimi beynəlxalq münasibətlərdə oynadığı rola diqqət yetirilmişdir. Ona görə də mədəniyyət anlayışına yalnız mədəni dialoq, beynəlxalq mədəni münasibətlər kontekstində baxacaq, beynəlxalq sənədlərdə öz əksini tapmış məzmunu haqqında söhbət açılmışdır.

Mədəniyyət amilinin dünya siyasətində müstəqil rolu və universal əhəmiyyəti bu gün heç kimi tərəfindən şübhə altında alınmır. Ancaq bir neçə onilliklər bundan əvvəl beynəlxalq və dövlətdaxili proseslərin təhlili zamanı mədəniyyət ya ümumiyyətlə, nəzərə alınmır, ya da ki, ona ikinci dərəcəli əhəmiyyət kəsb edən amil kimi baxırdılar. Dünya siyasi məkanının formalaşdırılmasının mühüm elementi kimi çıxış edən mədəniyyətin rolunun lazımınca qiymətləndirilməməsi çox ciddi nəticələrə gətirib çıxarmışdır. Qloballaşma, onun mədəni-siyasi aspektləri bəşər cəmiyyətinin bütün mərhələlərində mövcud olmuş, siyasi proseslərə ciddi təsir göstərmişdir. Sadəcə olaraq qlobal hadisələri nəzərdən keçirərkən, alimlər uzun müddət siyasətə və iqtisadiyyata üstünlük vermişlər, ancaq bu mədəniyyətin təsirini heç də azaltmırdı[13].

Son onilliklərdə dünyada baş verən proseslər göstərir ki, mədəniyyətdə, inanclarda, dildə, ənənələrdə mövcud olan hətta kiçicik fərqlər belə ən ciddi faciələrlə nəticələnə biləcək münaqişələr yarada bilər. Bundan hətta qohum və yaxın xalqlar və mədəniyyətlər belə sığortalanmayıblar. İran-İraq, Hindistan-Pakistan, İngilis-İrland, Gürcü-Abxaz-Osetin, Özbək-Qırğız, İspan-Bask və s. (onların sayını artırmaq da olar) münaqişələr əsasən yaxın mədəniyyətlərə mənsub xalqlar arasında baş verən münaqişələrdir. Böhran vəziyyətinin açıq qarşıdurmaya keçməməsi həm də hakim elitaların etnik münaqişələri neytrallaşdırmaq bacarığından asılıdır. Ona görə də dünyanın çoxmədəniyyətliliyinin etiraf edilməsi qloballaşma şəraitində ənənəvi mədəniyyətlərin mövcudluğunun zəruri şərtidir. Hər hansı dövlətin dünya siyasətində ağalığı kimi, "super mədəniyyətin" də müxtəlif mədəniyyətlər arasında hökmranlığı da təhlükəlidir. Ona görə də dünyanın mədəni müxtəlifliyinin qorunması beynəlxalq münasibətlərdə bütün dövlətlərin əsas vəzifəsi olmalıdır.

Mədəniyyət anlayışı bir sıra beynəlxalq sənədlərdə və hüquqi aktlarda ən müxtəlif kontekstlərdə və anlayışlarda istifadə olunur. Mədəni hüquqlara dair beynəlxalq sənədlərin təhlili göstərir ki, onlarda mədəniyyət bir neçə mənada işlədilir: 1)beynəlxalq hüquq normalarında öz əksini tapmış bir yanaşmaya görə mədəniyyət bütövlükdə cəmiyyətin və ya hər hansı konkret insan qruplarının məcmu maddi irsi, o cümlədən maddi mədəniyyət abidələri və əşyaları kimi müəyyənləşdirilir. Bu yanaşmaya görə mədəniyyət hüququ ayrı-ayrı şəxslərin və xalqların bu məcmu mədəni kapitaldan bərabər istifadə etmək hüququ deməkdir; 2)geniş yayılmış ikinci nöqteyi-nəzərə görə mədəniyyət indiyə qədər toplanmış və mövcud olan "mədəni kapital" deyil, bədii və elmi yaradıcılıq prosesi kimi nəzərdən keçirilməlidir.[14]

Mədəniyyət sahəsində siyasət haqqında Meksika Bəyannaməsində (Mexico City Declaration on Cultural Politics, 1982) qeyd edilir ki, sözün geniş mənasında mədəniyyət cəmiyyətin və sosial qrupun açıq şəkildə ifadə olunmuş mənəvi, maddi, intellektual və emosional xüsusiyyətlərinin məcmusu kimi nəzərdən keçirilə bilər. Mədəniyyət incəsənət və ədəbiyyatla yanaşı həyat tərzlərini, əsas insan hüquqlarını, dəyərlər sistemini, ənənə və inancları da əhatə edir.[15] Bəyannamədə dəfələrlə vurğulanır ki, hər bir mədəniyyət təkraredilməz və əvəzsiz dəyərlər məcmusudur, məhz öz ənənələri və ifadə formaları vasitəsilə hər bir xalq özünü dünyaya tanıdır. Mədəniyyətin bu tərifinə əsaslansaq, onda "qlobal mədəniyyət"i bütün dünyanın bölüşdüyü, eyniləşdirilmiş və standartlaşdırılmış dəyərlər toplusu kimi deyil, "müxtəlifliyin qlobal mədəniyyəti", müxtəlif mədəniyyətlərin ümumdünya qarşılıqlı əlaqəli sistemi kimi qəbul etmək lazımdır.

Fəslin ikinci paraqrafında qloballaşmanın milli mədəniyyətlərə təsiri ilə bağlı məsələlər işıqlandırılmışdır. Qloballaşma milli mədəniyyətlər arasındakı əvvəllər mövcud olmuş maneələri aradan

---

[13]Hopkins A.G. Globalization in World History. Pulmica Publishing, 2002, p 11-12

[14]Культурные права и проблемы связанные с их признанием. Сборник очерков, посвященный празднованию 50-ой годовщиной принятия Всеобщей декларации прав человека. Издательство ЮНЕСКО, 1997. Изд. дом Магистр, ЮНЕСКО, 2003, с.17

[15]Декларация Мехико по политике в области культуры, принятая на Всемирной конференции по политике в области культуры, 6 августа 1982 г. ЮНЕСКО, 1982; http: www.minervaplus.ru

qaldırmaqla mədəniyyətlərin qarşılıqlı əlaqə və təsir formalarının və səviyyələrinin də genişlənməsinə səbəb olur. Qlobal mədəniyyətinin təşəkkül tapması ilə yanaşı mədəniyyətlərin inkişafında digər tendensiya da özünü göstərməkdədir – mədəni müxtəlifliyin getdikcə zəifləməsi və milli mədəni dəyərlərin eyniləşməsi (unifikasiyası). Beynəlxalq mədəni əməkdaşlığın, genişləndiyi, mədəniyyətin xalqlararası kommunikasiyanın əsas formalarından birinə çevrildiyi zamanda milli identikliyin qorunması zəruriliyi problemi daha da aktuallaşır. Qloballaşma dövründə mədəniyyətlərin unifikasiyasını təkcə ayrı-ayrı mədəni formaların itməsi ilə deyil, həm də mədəni yekcinsliyin insanların təfəkkür tərzinin, dünyagörüşünün yekcinsləşməsinə gətirib çıxarması ilə təhlükəlidir. Məhz bu təhlükə müxtəlif beynəlxalq təşkilatların, o cümlədən BMT və YUNESKO-nun mədəni müxtəlifliyin qorunmasına yönəlmiş bir sıra qərarlar qəbul etməsinə səbəb olmuşdur.

Milli mədəniyyətlərin, mədəni müxtəlifliyin qorunub saxlanılması bəşəriyyətin mütərəqqi inkişafının əsas şərt olması bu gün hamının qəbul etdiyi aksiom olmalı və bu vəzifənin həyata keçirilməsinə çalışmalıdır.

Qloballaşma əleyhdarlarının fikrincə, bu ümumdünya prosesi müstəmləkəçiliyin yeni növünün, mədəni "imperializmin" yaranmasına gətirib çıxarmışdır. "Mədəni təcridçilik" qloballaşmanın qərbin hegemoniyasına, onun mədəni dəyərlərinin zorla qəbul etdirilməsi kimi çıxış edən formalarına təbii reaksiyası kimi çıxış edir. Mədəni imperializmdən fərqli olaraq qloballaşmaya pozitiv yanaşma tərəfdarları onu "müxtəlifliyin vəhdəti" kimi qiymətləndirirlər. Qlobal mədəniyyət bu zaman mədəni dəyərlərin, normaların inteqrativ sistemi kimi çıxış edir. Hər bir mədəniyyətin dəyərləri dünya mədəniyyətini zənginləşdirməklə yeni qlobal mədəniyyət yaranır ki, o da öz növbəsində milli mədəniyyətləri zənginləşdirir.

Bununla yanaşı milli mədəniyyətlərin gələcək taleyi ilə bağlı digər yanaşmanın mövcudluğunu da göstərməliyik. Bu yanaşmanın tərəfdarları millətin bəşəriyyətin "fövqəlmilli birliyə" doğru inkişafında yalnız aralıq həlqə olduğu fikrindən çıxış edərək milli mədəniyyətin də əbədi kateqoriya olmadığını, onun əvvəli olduğu kimi, sonunun da olduğunu iddia edirlər Lakin "qlobal mədəniyyət" anlayışına heç də bütün dünyanın bölüşdüyü, eyniləşdirilmiş və standartlaşdırılmış dəyərlər məcmusu deyil, yanaşı mövcud olan müxtəlif mədəniyyətlərin qarşılıqlı əlaqəli sistemi kimi baxmaq daha doğru olardı. Qlobal mədəniyyət milli mədəniyyətlərin harmonik vəhdəti, qlobal müxtəliflik mədəniyyətidir. Qlobal mədəniyyət anlayışına bu yanaşma mədəniyyətə aid bir çox beynəlxalq sənədlərdəki fikirlərlə həmahəng səslənir. Milli mədəniyyətin inkişafına nail olmadan, öz mənəvi dəyərlərimizə inam və etimadı yüksəltmədən və ümumbəşəri dəyərlər sistemi kimi başa düşülən qlobal mədəniyyətin milli identikliyə zərər vurmayacağına əmin olmadan mədəniyyətlərin dialoquna nail olmaq olmaz. Əgər biz öz mədəniyyətimizin əbədiliyinə inanırıqsa, yalnız o zaman başqaları ilə dialoq apara, onları daha yaxşı başa düşə və ümumi problemlərin həlli üçün yollar axtarıb tapa və bununla da mövcud problemləri aradan qaldıra bilərik.

Fəslin üçüncü paraqrafında dünyada gedən mədəni qloballaşma kontekstində onun əsas təzahürlərindən sayılan multikulturalizmin milli və beynəlxalq aspektləri nəzərdən keçirilmişdir. Qeyd olunur ki, mədəni qloballaşma kimi multikulturalizmə münasibətdə də bu gün çoxlu sayda yanaşmalar, definisiyalar mövcuddur ki, əksər halda onlarda məsələyə əks mövqedən yanaşılır. Təsadüfi deyildir ki. Bakıda keçirilmiş I və II Beynəlxalq Humanitar Forumlarda dünyanı narahat edən digər məsələlərlə yanaşı multikulturalizm məsələsi də geniş müzakirə edilmişdir. Multikulturalizm müasir cəmiyyətin etnomilli problemlərinin həllinin mümkün variantı kimi son vaxtlar tez-tez müraciət olunan mövzulardan biridir. Multikulturalizm sosial-mədəni davranışın və müvafiq siyasi strategiyanın modeli kimi də nəzərdən keçirilir. O bir növ mədəni müxtəliflik fenomeninə reaksiya kimi çıxış edir və ümumi bərabərlik prinsipinə istinad edir. Bu prinsipin həm mədəniyyətdə, həm də siyasi həyatda təmin edilməsini mümkün və zəruri hesab edən multikulturalizm müasir dövrün ən maraqlı və birmənalı qəbul edilməyən hadisəsinə çevrilmişdir. Multikulturalizmi yad hadisə hesab edərək ondan imtina edilməsini istəyənlər də, cəmiyyətin millətlərarası münasibətlər praktikasında geniş tətbiq etməyi təklif edənlər də kifayət qədərdir.

Multikulturalizmə sosial subyektlərin, müxtəlif mədəniyyətlərin bərabərhüquqlu inkişafına, ictimai həyatın bütün sahələrində müxtəlif əhali qruplarına münasibətdə ayrı-seçkiliyin aradan qaldırılmasına yönəlmiş ideya və fəaliyyətlərin kompleksi kimi də yanaşırlar. Multikulturalizmə bu cür yanaşma Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2010-cu ilin oktyabrında Bakıda "XXI əsr: ümidlər və çağırışlar" devizi ilə keçirilmiş Beynəlxalq Humanitar Forumdakı çıxışında öz əksini tapmışdır: "Multikulturalizmin alternativi yoxdur. Multikulturalizmin alternativi özünütəcriddir. Mən inanmıram ki, XXI əsrdə qloballaşan dünyada hər hansı bir siyasi qüvvə özünütəcrid siyasətini aparmağa cəhd etsin. Multikulturalizmin dəyərləri, əsasları möhkəmləndirilməlidir. Multikulturalizm başqa xalqın nümayəndəsinə hörmət, başqa dinlərə hörmətdir. İlham Əliyevin "biz Azərbaycanda əsrlər boyu

multikulturalizm şəraitində yaşamışıq. Həyatımız, xüsusilə, son 20 il ərzində müstəqil ölkə kimi təcrübəmiz göstərir ki, multikulturalizmin gələcəyi vardır" fikirləri multikulturalizmin məhz bu aspektini nəzərdə tutur.

2013-cü ildə keçirilmiş III Humanitar Forumda çıxışında da Azərbaycan Prezidenti İlham Əliyev multikulturalizmlə bağlı dünyada müxtəlif fikirlərin mövcudluğuna diqqəti cəlb edərək göstərmişdir ki, bizim hamımızın işi ondan ibarət olmalıdır ki, multikulturalizmin müsbət tərəflərini qeyd edək, onları təbliğ edək və dünyada bu mövzu ilə bağlı mövcud olan ayrı-seçkiliyi aradan götürək. Dövlət başçısı XXI əsrdə multikulturalizmin alternativi olmadığını, eyni zamanda multikulturalizmlə bağlı problemləri açıq şəkildə müzakirə etməyi təklif etmişdi.[16]Forumun qəbul etdiyi bəyannamədə multikulturalizm sahəsində bir çox ölkələrin, o cümlədən, Azərbaycanın uğurları etiraf edilmiş, müxtəlif ölkələrin cəmiyyətdə konsensus əldə olunmasına yönəldilən dövlət siyasətinin əsas tərkib hissəsi kimi qazanılmış təcrübənin öyrənilməsi zəruri sayılmışdı.

Dissertasiyanın **ikinci fəsli "Mədəniyyətlərin dialoqu və dialoq mədəniyyəti"** adlanır və üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə müasir dövrdə mədəniyyətlərin qarşılıqlı münasibətləri problemi təhlil olunmuşdur. Vurğulanır ki, müasir dünyada baş verən qlobal siyasi, iqtisadi, mədəni dəyişikliklər bir tərəfdən xalqların və mədəniyyətlərin yaxınlaşması ilə müşayiət olunursa, digər tərəfdən, bu dəyişikliklər bir sıra hallarda mədəniyyətlərin yadlaşması, uzaqlaşması, millətlərarası, dinlərarası münaqişələrin yaranması təhlükələrini yaradır və dünya birliyi qarşısında sabit və nizamlı inkişafın təmin edilməsi məsələsini kəskinliklə ortaya qoyur. Heç bir mədəniyyət təcrid olunmuş şəkildə, digər mədəniyyətlərin təsiri olmadan inkişaf edə bilməz. İstənilən xalqın mədəniyyətinin inkişafında və zənginləşməsində digər xalqların mədəniyyətinin təsiri böyük rol oynayır. Əlbəttə, mədəni təsiri bəsit şəkildə, adi riyazi əməl kimi, mədəniyyətləri toplamaq yolu ilə yeni mədəniyyətin yaranması kimi təsəvvür etmək olmaz. Əxz edilən mədəniyyətlərin elementləri mexaniki olaraq yad mühitə keçirilmir, xalqın mentaliteti, yerli ənənələr nəzərə alınmaqla tənqidi surətdə emal edilir. Başqa mədəniyyətin yerli mədəniyyətə yad, qəbul edilməz digər elementləri isə tamamilə rədd edilir.

Müasir beynəlxalq münasibətlərin tarixi sübut edir ki, mədəni əməkdaşlığın inkişafı dövlətlər arasında qarşılıqlı anlaşmanın əldə edilməsinin ən səmərəli vasitələrindən biridir. Hazırda iqtisadi qloballaşmanın sürətli inkişafı dövründə mədəniyyətlərin qarşılıqlı təsir səviyyəsi də getdikcə yüksəlir. Mədəniyyətlərarası mübadilənin görünməmiş miqyas aldığı indiki şəraitdə müstəqilliyə can atan istənilən mədəni sistem üçün öz əlahiddəliyini, təcridliliyini saxlamaq getdikcə çətinləşir. Mədəniyyətlərarası mübadilənin genişlənməsi şəraitində bir tərəfdən qlobal proseslərin mədəni sistemlərə təsiri getdikcə artır, digər tərəfdən isə bu mübadilələr qloballaşma prosesinin hərəkətverici qüvvəsinə və məzmununa çevrilirlər. Müasir dünya həm də bütün bəşəriyyət üçün qlobal xarakterli real təhdidlərin və təhlükələrin artdığı bir dünyadır. Kütləvi qırğın silahlarının yayılması, transmilli cinayətkarlıq, etnik və regional münaqişələr, separatizm, demoqrafik, ekoloji, enerji və ərzaq problemləri kimi qlobal təhlükələrin aradan qaldırılmasında mədəniyyət və mədəniyyətlərarası dialoq mühüm rol oynaya bilər. Artıq bütün ölkələr bu problemləri yalnız birlikdə, qarşılıqlı anlaşma və qarşılıqlı əməkdaşlıq yolu ilə həll etməyin mümkünlüyünü dərk etməkdədirlər. Bu isə öz növbəsində mədəni təmasların və dialoqun daha fəal surətdə həyata keçirilməsini zəruri edir. Mədəni sistemlərin qarşılıqlı nüfuz etməsi və qarşılıqlı əlaqəsi müxtəlif mədəniyyətlər arasındakı fərqləri heç də inkar etmir. Başqa mədəniyyəti olduğu kimi qəbul etmək, onun bütövlüklə təqlid edilməsi və ya tamamilə onun içində ərinməsi demək deyildir. Tarixi inkişaf baxımından götürsək başqa mədəni sistemlərə məxsus elementlərin mənimsənilməsi mədəniyyətinin öz hüdudları çərçivəsində baş verir və bu zaman ən dəyərli elementlər özününküləşdirilir. Bunu elə özünəməxsus Azərbaycan incəsənətinin tarixi də sübut edir. Bu gün milli mədəniyyətin və milli müstəqilliyin qorunub saxlanması müasir beynəlxalq münasibətlərin aparıcı meylinə çevrilir. Mürəkkəb sosial, iqtisadi, elmi-texniki, mədəni, mənəvi problemlərin aradan qaldırılması, dünya nizamına nail olunması üçün birinci növbədə konsensusa gəlmək, mədəni baryerləri aradan qaldırmaq lazımdır. Bu məqsədə çatmağın yenə də yeganə yolu dialoqdur. Qarşılıqlı anlaşmaya nail olmaq üçün hər bir mədəniyyəti unikal dəyər kimi qəbul etməklə dar mədəni çərçivələrdən imtina etmək, mədəniyyətlərin, sivilizasiyaların dialoquna girmək lazımdır.

Fəslin ikinci paraqrafında müasir dövrün qlobal problemlərinin həllində dialoqun əhəmiyyəti əsaslandırılmışdır. Qeyd olunur ki, dialoq, tamamilə yeni mədəni-tarixi proses olub, mədəniyyətlər, sivilizasiyalar, xalqlar, ölkələr arasındakı münasibətlərin yeni paradiqması, sülh və dinc yanaşı yaşamaq uğrunda hərəkatdır. Dialoq müxtəlif dövlətlər arasında qarşılıqlı anlaşma və əməkdaşlıq, mədəniyyətlər arasındakı münaqişə və toqquşmaların qarşısının alınması, XXI əsrin çağırışlarına cavab vermək,

---

[16]Azərbaycan qəzeti, 2013, 1 noyabr

mürəkkəb qlobal problemləri həll etmək mümkündür. Demoqrafik, ekoloji, texnoloji, iqtisadi, geosiyasi, sosio-mədəni və digər problemlərin uğurlu həllinin əsas şərtlərindən biri sivilizasiyaların dialoqu və əməkdaşlığı ideyasını yalnız dar ziyalı qrupunun deyil, milyonların düşüncə tərzinə, ali məqsədinə çevrilməsinə nail olunmasıdır. Sivilizasiyaların, xalqların, mədəniyyətlərin, dinlərin dialoqu və qarşılıqlı anlaşması terrorizmi, müharibələri, etnik separatizmi, zorakılıqları beynəlxalq və ölkədaxili münasibətlər praktikasından çıxara biləcək ən mühüm vasitədir. Yaranan ziddiyyət və münaqişələri (onlar həmişə olacaqdır – S.Ə.) zorakı yolla, qan tökməklə həlli metodlarına yol verilməməsi üçün müvafiq beynəlxalq şərait yaradılmalı, dünya ictimai rəyi buna qarşı yönəldilməlidir Dialoqun mahiyyəti ondan ibarətdir ki, bərabərhüquqlu tərəflər qarşılıqlı hörmət şəraitində bir-birlərindən nə ilə fərqləndiklərini, məhsuldar mədəni qarşılıqlı anlaşmanı təmin etmək üçün ümumi əsasın nədən başlandığını müəyyənləşdirməyə çalışırlar.

AŞ Xarici İşlər Nazirlərinin 7 may 2008-ci il tarixli 118-ci sessiyasında qəbul edilmiş “Mədəniyyətlərarası dialoqa dair Ağ kitab”da mədəniyyətlərarası dialoq – müxtəlif etnik mədəni, dini və linqvistik mənsubiyyətlərə və irsə malik fərdlər və qruplar arasında qarşılıqlı anlaşma və hörmət əsasında açıq və nəzakətli fikir mübadiləsi kimi başa düşülür.[17] Mədəniyyətlərin və sivilizasiyaların dialoqundan danışarkən ilk növbədə sivilizasiyalar və onların müxtəlifliyi və zənginliyi nəzərdə tutulur. Bu gün bəşəriyyətin üzləşdiyi problemləri, təhlükələri yalnız bütün xalqların, dövlətlərin birgə səyi ilə aradan qaldırmaq olar. Buna görə də dünya mədəniyyətlərinin yanaşı yaşamasını təmin etmək üçün onların dialoqunu təşkil etmək, digər mədəniyyətlərin nəsildən-nəslə keçmiş dəyər təsəvvürlərinə və mədəni özəlliklərinə hörmətlə yanaşmaq lazımdır. Mədəniyyətlər arasındakı fərqlər həmişə olmuş və olacaqdır. Lakin bu fərqlərə bəşəriyyətin hərəkətverici qüvvəsi kimi yanaşmaq lazımdır. Mədəniyyətlərin müxtəlifliyi və ümumi dəyərlər bütün dünyada dinc münasibətlər və təhlükəsizlik üçün əsas şərtlərdən biri olmalıdır. Bu planda beynəlxalq səylər, o cümlədən BMT Baş Məclisinin 2001-ci ili sivilizasiyalararası dialoq ili, 2010-cu ili Beynəlxalq Mədəniyyətlərin yaxınlaşması ili elan etməsi, “Sivilizasiyalar alyansı” və digər beynəlxalq təsisatların təşəbbüsləri dünyada mədəniyyətə və mədəni dialoqa verilən önəmi bir daha sübut edir.

Çox təəssüf ki, irqi, dini, milli ayrı-seçkilik, ksenofobiya kimi halların mövcudluğu da mədəniyyətlər arasında qarşılıqlı əlaqələrə öz mənfi təsirini göstərir. Ona görə də cəmiyyətin inkişafı və təşkilində dinc münasibətlərin mexanizmi kimi tolerantlığın rolu getdikcə artmaqdadır. Tolerantlıq bəzən “dözümlülük” məfhumu ilə eyniləşdirilsə də, onlar arasında müəyyən fərqlərin olduğunu qeyd etmək lazımdır. Hazırda tolerantlıq başqalarının fikrinə, baxışlarına, hərəkətlərinə passiv itaətkarlıq kimi deyil, fəal mənəvi mövqe, etnoslar, sosial qruplar arasında qarşılıqlı anlaşma, digər mədəni, etnik, dini, sosial birliyə mənsub insanlarla pozitiv qarşılıqlı əlaqə naminə dözümlülüyə hazır olmaq kimi başa düşülür. Tolerantlıq – bəşəriyyətin vahidliyinin, hər kəsin hamıdan, hamının hər kəsdən qarşılıqlı asılılığının intuitiv qavranılması, digərinin hüquqlarına (o cümlədən, başqa cür olmaq hüququna) hörməti özündə ehtiva edir. YUNESKO-nun 1995-ci ildə 16 noyabr tarixli “Tolerantlıq prinsipləri” adlı Bəyannamədə qeyd olunur ki, tolerantlıq dünyamızın zəngin mədəni çoxçalarlığının, özünümüdafiə formalarının və insan fərdiyyətinin təzahür üsullarının müxtəlifliyinin qəbul edilməsi, düzgün başa düşülməsi və onlara hörmət edilməsi deməkdir. Cəmiyyətin tolerantlığı onun bilik səviyyəsi açıqlığı, ünsiyyət və fikir azadlığının dərəcəsi, malik olduğu mənəvi-etnik dəyərlərlə ölçülür.

Dissertasiyanın **üçüncü fəslində Azərbaycanın dünyaya inteqrasiyasının mənəvi-mədəni amilləri** nəzərdən keçirilir. Dünya mədəniyyəti kontekstində Azərbaycanın tarixi-mədəni irsi geniş təhlil edilir. Vurğulanır ki, bu gün Azərbaycan dünya birliyinə təkcə özünün maddi sərvətləri ilə deyil, həm də zəngin mənəvi-mədəni sərvətləri ilə inteqrasiya olunmaqdadır. Milli liderimiz Heydər Əliyevin göstərdiyi kimi, ölkəmiz təkcə coğrafi göstəricilərlə deyil, həm də mədəniyyət və düşüncə tərzinə görə Şərqlə Qərbin harmonik vəhdət ərazisidir, onun zəngin milli mədəniyyəti ilə ümumbəşəri mədəniyyətin tərkib hissəsi olub dünyanın ən qədim mədəniyyət və mənəviyyat ərazilərindən biridir.[18] Ölkəmizin bənzərsizliyini şərtləndirən əsas amillərdən biri də tarixən formalaşmış mənəvi-mədəni dəyərlərimizdir. Azərbaycan lap qədimlərdən Şərqlə Qərbin zəngin mədəniyyətlərini özündə yaşadan, məxsusi dəyərlərini qorumaqla ümumbəşəri dəyərlərə sadiqliyini nümayiş etdirən, ən müxtəlif xalqlara, onların mənəvi dəyərlərinə, dilinə, məişətinə, etnik dini konfessiyalara tolerant münasibət bildirən bir məkan olmuşdur. Azərbaycan mədəniyyətinin ən mühüm xüsusiyyətlərindən biri dünya mədəniyyətinin inkişaf təcrübəsinin yaradıcı

---

[17]Mədəniyyətlərarası dialoqa dair Ağ kitab. Ləyaqətlə Bərabərhüquqlu birgə yaşama. Strasburq, 7 may, 2008-ci il, www.coe.int/dialogue

[18]Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət.

şəkildə mənimsənilməsi, onun nəticələrindən bəhrələnməsi olmuşdur. Mədəniyyətin milli mübarizədə mühüm səfərbəredici qüvvə olduğunu aydın dərk edən mütərəqqi mədəniyyət xadimlərimiz eyni zamanda inanırdılar ki, Azərbaycan mədəniyyətinin gələcək inkişafı dünya sivilizasiyasından kənarda deyil, onunla bir məcrada gedəcəkdir. Azərbaycan mədəniyyətinin ümumdünya kontekstində, digər xalqlarla birgə inkişaf perspektivi heç kimdə şübhə doğurmurdu.

Müxtəlif xalqlarla mədəni dəyərlərin qarşılıqlı mübadiləsi Azərbaycan mədəniyyətini, ədəbiyyatını, elmi və ictimai fikrini zənginləşdirməklə, beynəlmiləl və humanist ənənələrini əks etdirməklə yanaşı, ümumdünya mədəni inkişafa da öz töhfəsini verirdi. Azərbaycan mədəniyyətinin beynəlmiləl xarakter alması, dünya mədəni proseslərinə qovuşması sayəsində milli mədəniyyətin və mənəvi həyatın yeni formaları – mətbuat, teatr, professional musiqi və rəsm sənəti təşəkkül tapdı. Milli mədəniyyətin bütün sahələrində realist prinsiplərin bərqərar olması mədəni inkişafda ən mühüm göstəricilərdən biri hesab edilməlidir. Azərbaycan mədəniyyətində təzahür edən mütərəqqi proseslər sonrakı dövrlərdə daha da inkişaf edərək xalqın ümumi inkişafına öz təsirini göstərmişdi. Qısa zaman kəsiyində yaradılmış yüksək mədəni dəyərlər və sərvətlər nəinki Azərbaycanın, bütövlükdə dünyanın qızıl fonduna daxil olmuş, mədəniyyətin əksər sahələrində azərbaycanlılar Şərqin müsəlman xalqlarını bir neçə illiyə qabaqlamışdılar.

Milli özünüdərkin, milli şüurun müəyyənləşməsi Azərbaycanda modernləşmə, müasirləşmə prosesi ilə müşayiət olunurdu ki, bu da müəyyən mənada Qərb sivilizasiyasının mənimsənilməsi, o dövrün dili ilə desək, "avropalaşma" kimi başa düşülürdü. Şərqin və Qərbin qovşağında yerləşən Azərbaycan rasional və mənəvi dəyərlərin nisbəti baxımından da bu iki müxtəlif dəyərlər sisteminin birgə mənimsənilməsi sahəsində aparıcı mövqe tutmuşdu. Rusiya vasitəsilə qabaqcıl Avropa ictimai-siyasi fikrinin elmi-mədəni nailiyyətlərinin, maarifçilik ideyalarının Azərbaycana keçməsi bu prosesin inkişafı üçün münbit şərait yaratmışdı. Modernləşmə və avropalaşma prosesinin ən məntiqi yekunu isə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması oldu: AXC Şərq və Qərb dəyərləri özündə üzvi surətdə birləşdirən fenomen bir hadisə idi. 1920-ci ilin sovet işğalı Azərbaycanın dövlət müstəqilliyinə qon qoyaraq çağdaş dünya ilə bütövləşməsi prosesini ləngitsə də, onun qarşısını tam ala bilmədi. Sonrakı dövrlərdə Azərbaycan SSR iqtisadiyyat və mədəniyyətin yeni yüksəliş mərhələsinə qədəm qoymuşdu. Xüsusən 1970-85-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdu. Bu gün tam əminliklə demək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır.[19] Azərbaycan sovet sisteminə daxil olduqdan sonra onun beynəlxalq əlaqələri, xarici siyasəti tam məhdudlaşdırılsa da, mədəniyyət sahəsində bu əlaqələr az da olsa inkişaf etmişdi. Azərbaycanın mədəni əlaqələri Kommunist Partiyasının siyasətinə, hakim ideologiyanın təbliğinə tabe etdirilmiş və əsasən mərkəzi sovet orqanları vasitəsilə həyata keçirilirdi. Azərbaycan dünyanın 150 ölkəsi ilə mədəni əlaqələr saxlayırdı. Azərbaycanın mənəvi irsinə tarixi perspektivdən və qlobal inteqrasiya proseslərində rolu kontekstindən nəzər saldıqda qeyd etmək olar ki, bu xalqlar arasında səmərəli dialoqun aparılmasına xidmət göstərməklə yanaşı bəşəri dəyərlərə kökləndiyi üçün mədəni inteqrasiyaya da mühüm dəstək ola bilər. Bizim mənəvi-mədəni təcrübəmiz, potensialımız dünyada genişlənən mədəni inteqrasiyanın, dövrü, inteqral dünyagörüşünün üzvi hissəsi olmağa layiq bir amildir.

Fəslin ikinci paraqrafında Heydər Əliyevin dünyagörüşündə və fəaliyyətində mədəniyyətlərin dialoqu məsələləri araşdırılmışdır. Azərbaycanın dünyaya inteqrasiyasında, mədəniyyətlərin dialoqunda fəal subyekt kimi iştirak etməsində Heydər Əliyevin ölkəmizin mədəni və demokratik dünyaya qovuşması, onun mədəni, milli mənəvi dəyərlərinin dünyada tanıdılması, eləcə də bəşəriyyətin mənəvi xəzinəsindən xalqımızın bəhrələnməsini nəzərdə tutan strategiyanı uğurla həyata keçirməsi mühüm rol oynadı.

Sovet sisteminin sərt siyasi və ideoloji məhdudiyyətlərinə baxmayaraq Heydər Əliyev hələ XX əsrin 70-ci illərində Azərbaycan mədəniyyətinin, milli-mənəvi dəyərlərinin keçmiş SSRİ və dünya miqyasında tanıdılması üçün bütün imkanlardan istifadə etmişdir. Bu gün ölkəmizin müstəqilliyinin və dünyaya inteqrasiyasının sosial-iqtisadi, mədəni-mənəvi amilləri o vaxt Heydər Əliyev tərəfindən yaradılmış möhkəm potensiala əsaslanır. Uzaqgörən və müdrik siyasəti ilə o Azərbaycanın dünya ölkələri ilə mədəni əlaqələrinin inkişaf etdirilərək möhkəmlənməsinə xidmət etmişdir. Heydər Əliyevin himayədarlığı və gərgin səyləri sayəsində Azərbaycan mədəniyyətinin bütün növləri dünya miqyasında geniş tanınmağa və şöhrət tapmağa başlamışdır. O, mədəniyyət xadimlərini, yaradıcı ziyalıları öz qınına qapanmamağı, dünya

---

[19]Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət

mədəni nailiyyətlərindən yaradıcılıqla istifadə etməyi, öz əsərlərində milli və ümumbəşəri dəyərləri üzvi surətdə birləşdirməyi tövsiyə edirdi. Heydər Əliyev əsl mənəvi tərəqqinin yolunu məhz milli-mənəvi sərvətləri ilə dünya mədəniyyətinin nailiyyətlərindən vəhdətdə istifadə edilməsində görürdü.

Müstəqil dövlətin başçısı kimi Heydər Əliyev Azərbaycanın mədəni və demokratik dünya birliyinə inteqrasiya olunması, onun mədəni, milli-mənəvi sərvətlərini bütün dünyada tanıtmaq, eləcə də bəşəriyyətin mədəni-mənəvi dəyərlərinin, nailiyyətlərindən öz xalqının tərəqqisi naminə bəhrələnməsi vəzifəsini müəyyənləşdirən strategiyanın banisi oldu. Heydər Əliyev Azərbaycan mədəniyyətini bəşəri hadisə hesab edərək, onun dünya mədəniyyətinin tərəqqisində mühüm rol oynadığını iftixarla qeyd edirdi. “Azərbaycan xalqı bəşər tarixinə böyük, dəyərli, dahi simalar bəxş etmiş, onların əsərləri, yaradıcılığı dünya elmini, mədəniyyətini zənginləşdirmiş, insanları maarifləndirmişdir” [20]. O, vurğulayırdı ki, respublikamızı təkcə müstəqil bir dövlət, zəngin təbii sərvətlərə malik ölkə kimi yox, zəngin tarixi, mədəniyyəti olan ölkə kimi tanıtmalıyıq. Heydər Əliyev mədəniyyətlərin dialoqunda Azərbaycanın tutduğu yerin unikallığına diqqəti cəlb edərək, ölkəmizin çoxmillətliliyini onun sənginliyinin və özünəməxsusluğunu xüsusi əlaməti hesab edirdi. O hər yerdə Azərbaycanda tarixi təşəkkül tapmış milli, mədəni və dini tolerantlığı dünya birliyi üçün mühüm nümunə kimi gətirir və iftixarla qeyd edirdi ki, Azərbaycan çoxmillətli dövlətdir. Azərbaycanda mövcud olan milli-mədəni tolerantlıq ənənəsinin Heydər Əliyev eyni zamanda bəşəriyyətin inkişafı üçün örnək ola biləcəyinə daxili inamını ifadə edirdi: “Dövlət, ölkə nə qədər çox xalqı birləşdirirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.”

Heydər Əliyev totalitarizmdən demokratiyaya keçid dövründə Azərbaycanın dünyaya inteqrasiyası prosesində milli-mənəvi mentalitetimizi qloballaşmanın neqativ təsirindən qorumanın ən optimal yolu kimi “Azərbaycançılıq” ideologiyasının inkişafının hər vasitə ilə gücləndirilməsini tövsiyə edirdi. Heydər Əliyev mədəniyyətlərin əlaqəsinə, dialoquna həm də ictimai tərəqqinin, sabit inkişafın güclü amili kimi baxırdı. Bu baxımdan onun yaratdığı müstəqil Azərbaycan dövləti etnik, dini tolerantlığı, digər mədəniyyətlərə və dəyərlərə hörmətlə yanaşmanın əsil nümunəsi ola bilər.

Dissertasiyanın dördüncü fəslində Azərbaycan Respublikasının müasir dövrdə mədəniyyətlərarası dialoq siyasəti təhlil edilir. Birinci yarımfəsildə Azərbaycan dövlətinin beynəlxalq mədəni əməkdaşlığın genişlənməsində rolu işıqlandırılmışdır. Beynəlxalq mədəni və humanitar əməkdaşlığın inkişaf etdirilməsi, xalqlar arasında qarşılıqlı anlaşmaya nail olunması Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir.

2000-ci ilin ortalarından başlayaraq Azərbaycanın beynəlxalq mədəni münasibətlərdə yeri və rolu getdikcə genişlənmiş, ölkəmiz bir çox beynəlxalq mədəni tədbirlərə, festival və müsabiqələrə ev sahibliyi etmişdir. Onların sırasında Şostakoviç Festivalı (2006), Q.Qarayev adına Beynəlxalq Müasir musiqi Festivalı, Karvan Beynəlxalq musiqi layihəsi (2007), Beynəlxalq Rastropoviç festivalları (2007-2013), Bakı Beynəlxalq Caz Festivalları (2009-2013), Ü.Hacıbəyliyə həsr olunmuş musiqi festivalları (2009-2013), Vokalçıların Bülbül adına musiqi müsabiqəsi (2007, 2010), Qəbələ beynəlxalq Musiqi Festivalları (2009-2013), beynəlxalq səviyyəli tədbirlər ölkəmizin beynəlxalq mədəni-əlaqələrinin inkişafına öz müsbət təsirini göstərməklə yanaşı, mədəniyyətlər arasında dialoqun genişləndirilməsində də mühüm rol oynamışdır.2006-cı ildən sonra bir çox xarici ölkələrdəAzərbaycan mədəniyyəti günləri keçirilmiş, Azərbaycanda isə həmin ölkələrin mədəniyyət günləri təşkil olunmuşdur. Azərbaycanın zəngin mədəniyyətinin dünya mədəniyyətinə inteqrasiyası yolunda mühüm addımlardan biri görkəmli mədəniyyət, ədəbiyyat, elm xadimlərimizin yubileylərini təkcə ölkə daxilində deyil, həm də xarici ölkələrdə geniş qeyd olunması, onların əsərlərinin geniş oxucu kütləsinə çatdırılması olmuşdur. Bu baxımdan Ü.Hacıbəylinin, Q.Qarayevin, A.Məlikovun, T.Salahovun, Ə.Bədəlbəylinin yubileylərinin keçirilməsini xüsusi qeyd etmək lazımdır. Dahi bəstəkar Ü.Hacıbəylinin “Leyli və Məcnun” operasının 2008-ci ildə 100, “Arşın mal alan” operettasının 2013-cü ildə 100 illiyi geniş qeyd edilmiş, ABŞ, Türkiyə, Çin, İran, Ukrayna və digər ölkələrdə bəstəkarın məşhur əsərləri müxtəlif dillərdə tamaşaya qoyulmuşdur. Eyni zamanda ölkəmizdə bir çox dünya şöhrətli mədəniyyət xadimlərinin yubileylərinin keçirilməsi, tanınmış musiqi, teatr, incəsənət kollektivlərinin, ayrı-ayrı ifaçıların qastrollarının, rəssamların sərgilərinin təşkili ölkəmizin beynəlxalq mədəni əməkdaşlığının genişlənməsinin təzahürü olmuşdur.

Ölkəmizdə İslam dünyası arasında çoxtərəfli mədəni əməkdaşlıq yüksək səviyyədə inkişaf etdirilir. Bu əməkdaşlıq həm İslam Konfransı Təşkilatı, həm də onun ixtisaslaşmış institutları olan İSESKO və İRSİKA təşkilatları çərçivəsində həyata keçirilir. Bu baxımdan Bakı şəhərinin 2009-cu il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi xüsusi qeyd edilməlidir. Mədəniyyət ili çərçivəsində 2009-cu ilin 13-15 oktyabr tarixində Bakı şəhərində İslam Konfransı Təşkilatına üzv dövlətlərin Mədəniyyət

---

[20]Əliyev H. Müstəqillik yolu. B.: Azərbaycan Universiteti, 1997, s.62

Nazirlərinin VI Konfransı keçirilmişdir. Qəbul edilmiş Bəyannamədə İslam dünyası ilə Avropa arasında mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi, bu sahədə layihə və proqramların həyata keçirilməsi, münaqişə zonalarında mədəni irsin qorunması ilə bağlı birgə tədbirlərin görülməsi məsələləri öz əksini tapmışdır. Konfransın qəbul etdiyi "İslam dünyasında təhlükə altında olan mədəni və dünyəvi irsin qorunmasına dair" Qətnamədə işğal edilmiş Azərbaycan ərazilərində İslam irsinin məhv edilməsi ilə həyata keçirilən vandalizm hərəkətləri pislənilmiş, BMT-nin 822, 853, 874 və 884 nömrəli qətnamələrinin Ermənistan tərəfindən dərhal və şərtsiz yerinə yetirilməsi tələb olunmuşdur .[21]

Azərbaycan türk dünyasında mədəni əməkdaşlığın və dialoqun əsas təşəbbüskarlarından biri kimi çıxış etməkdədir. Azərbaycan hökuməti TÜRKSOY təşkilatı çərçivəsində türk xalqlarının mədəni inteqrasiyanı sürətləndirmək üçün son vaxtlar bir sıra təşəbbüslərlə çıxış etmiş, Türkdilli Ölkələrin Mədəniyyət Nazirləri Daimi Şurasına işin təkmilləşdirilməsi üçün maraqlı təkliflər irəli sürmüşdür. Azərbaycanın TÜRKSOY təşkilatı çərçivəsində həyata keçirdiyi mühüm tədbirlərdən biri də 2013-cü ilin sentyabrında YUNESKO mənzil qərargahında Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının 100 illiyinə həsr edilmiş tədbir olmuşdur. Azərbaycan Respublikası bu gün də türk dünyasının mədəni əməkdaşlığının inkişafına, türk xalqları arasında dialoqun genişlənməsinə mühüm töhfələr verir.

Azərbaycan bir sıra regional təşkilatlar, o cümlədən GUAM, QDİƏT, MDB çərçivəsində mədəni əməkdaşlıq və dialoqun inkişaf etdirilməsində də mühüm rol oynayır. MDB ölkələrinin MDB Dövlət başçıları Şurasının qərarı ilə Qəbələ şəhərinin 2013-cü ildə "Müstəqil Dövlətlər Birliyinin Mədəniyyət paytaxtı" seçilməsi ölkəmizin MDB məkanında mədəniyyətlərarası dialoq və ünsiyyətin inkişafında aparıcı rol oynadığını nümayiş etdirir. Azərbaycanın müasir beynəlxalq mədəni münasibətlərdə fəal iştirakının əsas səbəblərindən biri, heç şübhəsiz, ölkəmizin dünya miqyasında siyasi, iqtisadi, mədəni mərkəzə çevrilməsi ilə sıx əlaqədardır. 2013-cü ildə Azərbaycanda ilk dəfə olaraq Dovos Forumunun keçirilməsi, Bakıda Madrid klubunun toplanması, dünya miqyaslı siyasətçilərin, ictimai xadimlərin ölkəmizə müntəzəm səfərləri Azərbaycana verilən böyük dəyər kimi qiymətləndirilməlidir. Artıq Azərbaycan bütün dünyada çox böyük nüfuza və hörmətə malik bir ölkə kimi tanınır.

Fəslin "Azərbaycan mədəniyyətlərarası dialoq məkanı kimi" adlanan ikinci yarımfəslində ölkəmizin mədəniyyətlərin və sivilizasiyaların dialoqunda rolu və əhəmiyyəti, bi istiqamətdə atdığı addımlar təhlil edilmişdir. Azərbaycan sivilizasiyalararası yaxınlaşmaya kömək edən bütün beynəlxalq təşəbbüsləri dəstəkləyir və bir sıra hallarda bu dialoqun təşəbbüskarı və iştirakçısı kimi çıxış edir. Ölkəmiz bu istiqamətdə BMT, Sivilizasiyalar Alyansı, YUNESKO, İSESKO, ATƏT, Avropa Şurası, MDB, digər xüsusi beynəlxalq struktur və forumlar çərçivəsində beynəlxalq dialoqa öz layiqli töhfəsini verib və verməkdədir. Azərbaycan Respublikası dinlərarası və sivilizasiyalararası dialoqun genişləndirilməsinin fəal dəstəkləyicisi olaraq, Sivilizasiyalararası Alyansa qoşulan ilk ölkələrdəndir. 2009-cu ildə Azərbaycan Alyansla münasibətlərinin inkişaf planını hazırlamış və bu beynəlxalq təşkilata təqdim etmişdir. Planda dövlət və qeyri-dövlət təşkilatlarının, elm, mədəniyyət, din və digər mülki cəmiyyət strukturlarının Alyansla əməkdaşlığının inkişafı üzrə konkret istiqamətləri öz əksini tapmışdır. 2011-ci ilin aprelində Bakıda keçirilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda BMT-nin Sivilizasiyalar Alyansı Katibliyinin icraçı direktoru Mark Şuer iştirak etmiş, Azərbaycanın mədəniyyətlərarası dialoqun təşkilindəki rolunu yüksək qiymətləndirmişdir.[22] Beynəlxalq mədəni dialoqun təşkilində Azərbaycan Avropa Şurası ilə yaxından əməkdaşlıq edir. 2009-cu il iyulun 8-də Bakıda AŞ ilə AR MTN-nin təşkilatçılığı ilə "Azərbaycan – AŞ mədəni əməkdaşlığı: imkanlar və perspektivlər" mövzusunda keçirilmiş tədbirdə iki tərəf arasında əməkdaşlığın vəziyyəti və görüləcək işlər ətraflı müzakirə olunmuşdur. 2008-ci ilin dekabrında Bakıda keçirilmiş "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" konfransı Avropa Şurasına üzv dövlətlərin mədəniyyətlərarası dialoqunun genişlənməsinə mühüm töhfə verdi. Konfransda 48 dövlətin və 10 beynəlxalq təşkilatın başçısının iştirak etməsi bu tədbirin Avropa Şurası üçün nə qədər önəm daşıdığını göstərdi. Beynəlxalq konfransın Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə keçirilməsi ölkə başçısının mədəniyyətlərin dialoqunda Azərbaycanın rolunu daha da genişləndirməsi istiqamətində səylərinin təzahürü oldu. Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır mövzusunda Bakı konfransı Avropa və onun qonşu regionları üçün yeni əməkdaşlıq mərhələsinin – Bakı prosesinin başlanğıcı oldu. Konfransa Avropa Şurası üzv dövlətlərin, islam dünyası regionlarının, YUNESKO, Avropa Komissiyası, ATƏT, İSESKO, ALESKO, GUAM, TÜRKSOY, İRSİKA kimi müşahidəçi statusuna malik ABŞ, Kanada, Yaponiya, Meksika və s. kimi dövlətlərin, həmçinin Avropa Mədəniyyət Fondunun, İncəsənət və İrs üzrə Avropa İrs təşkilatı kimi

---

[21]AR MTN 2009-cu ilə dair hesabatı. B.: "Nağıl evi", 2010, s.67-68
[22]Azərbaycan, 2011, 8 aprel.

beynəlxalq qeyri-hökumət qurumlarının nümayəndələri dəvət olunmuşdular. Bakı görüşündə Avropa Şurası Baş Katib, TÜRKSOY, İSESKO, ALESKO və İRSİKA təşkilatları baş direktorları, 24 dövlətin nazir və ya nazir müavini, digər dövlətlər isə idarə rəhbərləri səviyyəsində təmsil olunmuşdular.[23]. Konfransın mövzusu, iştirakçıların tərkibi, əhatə etdiyi regionların miqyasına görə Avropa və iştirakçı ölkələrin tarixində mədəniyyətlərarası dialoq mövzusunda ilk beynəlxalq tədbir idi. Əslində bu format gələcəkdə beynəlxalq əhəmiyyətli tədbirlər üçün də bir nümunə olmuşdur.

Son illər Azərbaycan, onun paytaxtı Bakı şəhəri əsl dialoq məkanına çevrilmişdir. Bunun coğrafi, tarixi, həm də bugünkü reallıqlar baxımından bir sıra səbəbləri mövcuddur. Azərbaycanın Şərqlə Qərbin, Şimalla Cənubun birləşdiyi, müxtəlif sivilizasiyaların, mədəniyyətlərin qovuşduğu coğrafi məkan olması, ölkədə müxtəlif mədəniyyətlərin, dinlərin dinc yanaşı yaşaması təcrübəsi, İslam dünyasının tərkib hissəsi olmaqla yanaşı Qərb dünyasına da sürətlə inteqrasiya olan dövlət kimi tanınması kimi amillər onun mədəniyyətlərin dialoqu mərkəzinə çevrilməsinə obyektiv şərait yaradır. 2009-cu ildə Bakı İslam mədəniyyətinin paytaxtı elan edilmiş, İslam Konfransı Təşkilatına üzv olan ölkələrin, eləcə də Avropa dövlətlərinin mədəniyyət nazirlərinin toplantısı keçirilmişdir. 2008-ci ildə isə bütün ölkələri əhatə edən beynəlxalq qadın konfransı keçirilmiş və mədəniyyətlərarası dialoqda qadınların roluna dair Bakı Bəyannaməsi qəbul edilmişdir. Bununla da siyasi və elmi ədəbiyyatda "Bakı prosesi" adını almış prosesin əsası qoyulmuşdur. Sonrakı dövrlərdə digər beynəlxalq tədbirlər keçirilmiş və nəhayət Bakı Forumu artıq bir forum kimi formalaşmış və indi bu proses uğurla davam edir.

2011-ci ilin aprelində Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun da Bakıda keçirilməsi, həmin ilin oktyabrında multikulturalizm problemlərinə həsr edilmiş forumun təşkili Azərbaycanın dünya mədəniyyətlərarası dialoqda oynadığı rolu bir daha sübut etdi. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əsas məqsədi mədəniyyətlərarası dialoqun müxtəliflik və plüralizmlə səciyyələnən müasir cəmiyyətlərdə ayrı-ayrı aspektlərinin nəzərdən keçirilməsi və yerli, regional və qlobal səviyyələrdə gücləndirilməsinə təşviq edilməsi olmuşdur. Forumun keçirilməsi ideyası Azərbaycana məxsus idi və o BMT-nin Sivilizasiyalararası Alyansı, YUNESKO, Avropa Şurası, AŞ Şimal-Cənub Mərkəzi və İSESKO tərəfindən dəstəklənmişdi. Dünyada ilk dəfə bu formatda keçirilən Forumun əsas məqsədi həmçinin mədəniyyətlərarası dialoq çərçivəsində Azərbaycanın irəli sürdüyü və həyata keçirdiyi təşəbbüsləri regional müstəvidən çıxararaq qlobal səviyyəyə qaldırmaq, ölkəmizdə daimi fəaliyyət göstərən Beynəlxalq forum yaratmaq idi. Forumda mədəniyyətlərarası dialoqun konseptual, idarəçilik, siyasi və əməli aspektləri müzakirə olunmuş, dialoqa yönələn maneələr nəzərdən keçirilmiş, onun müxtəlif mühitlərdə aparılmasının ən yaxşı formaları diskussiya obyekti olmuşdur. Forumda irəli sürülən ideyalar və təşəbbüslər xalqlar arasında daha yaxşı anlaşmanın əldə edilməsinə, mədəniyyətlərarası əlaqələrin daha da güclənməsində böyük rol oynadı. Forum bir həqiqəti bir daha sübut etdi: Azərbaycan sivilizasiyalar və mədəniyyətlərarası dialoqun uğurla gerçəkləşdiyi coğrafi məkan kimi bütün dünya ölkələrinə nümunə olmağa layiqdir. Ümumdünya forumu Bakının dialoq paytaxtı kimi çıxış etməyə ən layiqli şəhər olduğunu bir daha təsdiqlədi. Bu fikri dünyanın bir sıra aparıcı media orqanlarında forumla bağlı dərc edilmiş materiallar da sübut edirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun yüksək səviyyədə keçdiyini və beynəlxalq arenada xüsusi əks-səda doğurduğunu, Şərqlə Qərbin, Şimalla Cənubun kəsişməsində yerləşən ölkəmizin tolerant mədəniyyətin və tarixi ənənələrinin beynəlxalq aləmdə tanıdılması, İslam dünyası ilə Qərb sivilizasiyası və digər mədəniyyətləri təmsil edən xalqlar arasında dialoqun və etimadın möhkəmləndirilməsində Azərbaycan Respublikasının vacib rolunu nəzərə alaraq bu tədbirin iki ildən bir keçirilməsi barədə xüsusi fərman imzalamışdır.[24]

2010-cu ilin yanvarında Azərbaycan və Rusiya prezidentlərinin təşəbbüsü ilə Bakıda keçirilmiş Humanitar Əməkdaşlıq üzrə Azərbaycan – Rusiya Forumunda qəbul olunmuş qərara əsasən 2011-ci ilin oktyabrında təşkil edilmiş "XXI əsr: ümidlər və çağırışlar" şüarı altında I Bakı Beynəlxalq Humanitar Forumu ən geniş humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir məkan oldu. Forumda çıxış edənlər təsdiq edirdilər ki, mədəniyyətlərarası dialoqun təşviqi indi dünyada ən çox ehtiyac duyulan prinsiplərdən biridir və Bakı Beynəlxalq Humanitar Forumu mürəkkəb çağırışların idarə edilməsində çox mükəmməl bir platformadır:

Bakıda sivilizasiyalararası dialoqa, humanitar əməkdaşlığa həsr edilmiş tədbirlərin keçirilməsi eyni zamanda Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin beynəlxalq arenada getdikcə artan nüfuzu və mövqeləri ilə sıx bağlıdır. Əslində tərəqqiyə və qarşılıqlı anlaşmaya xidmət edən bu tədbirlər qloballaşan dünyada dialoqa, əməkdaşlığa, əmin-amanlığa xidmət edir və bütün mütərəqqi bəşəriyyət

[23]Azərbaycan, 2008, 22 noyabr
[24]www.mst.gov.az

tərəfindən rəğbətlə qarşılanır. Azərbaycan prezidenti hazırda bütün dünyanı narahat edən geniş diskussiyalar mövzusuna çevrilən bəşəriyyətin qlobal humanitar problemlərinə münasibəti, dialoq və əməkdaşlığa çağırışları insan fəaliyyətinin müxtəlif aspektlərində humanitar, humanist amillərin rolunu aydın dərk etməsi, Azərbaycanı bu istiqamətdə aparıcı mövqeyə çıxarması bütün dünya üçün son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Bakı Forumunun diqqəti cəlb edən ən mühüm məqamlarından biri də mədəniyyətlərin dialoqunda gənclərin və qadınların roluna dair məsələlərin gündəmə gətirilməsi oldu.

2012-ci ilin oktyabrında keçirilmiş İkinci Forum da beynəlxalq mədəni-humanitar sahədə mühüm hadisə oldu. Forum, qəbul etdiyi Bəyannamədə hər bir cəmiyyətin ənənəvi xüsusiyyətlərini nəzərə alaraq, onun inkişaf prosesinin özünəməxsusluğunun və müxtəlifliyinin dərk edildiyini vurğulayaraq beynəlxalq qurumları və müxtəlif humanitar təşkilatları dövlətlər, vətəndaş cəmiyyətləri və konfessiyalar arasında tolerantlıq mühiti yaratmağa və sivilizasiyalararası münaqişələrin qarşısını almağa xidmət edən əsil mədəniyyətlərarası dialoqun gerçəkləşdirilməsi məqsədi ilə forumlar, konfranslar, müzakirələr, dəyirmi masaların təşkilinə davamlı olaraq təşəbbüs göstərməyə çağırmışdı.[25]

Humanitar məsələlərlə bağlı yeni format olan və pozitiv məqsədlər güdən "Bakı prosesinin" əhəmiyyəti həm də ondan ibarətdir ki, bəşəriyyətə dövlətlərin, xalqların və konfessiyaların dinc birgəyaşayış yollarını tapmaqda, dünya birliyinin səyləri nəticəsində yeni çağırış və təhdidləri anlamaqda, meylləri və perspektivləri təhlil etməkdə onlara düzgün yol göstərsin. Dünya birliyi öz səylərini cəmləşdirsə, onun intellektual potensialı yeni minilliyin çağırışlarına davam gətirə bilər. Bakı Forumunun dəyərliliyi məhz bundadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 may 2011-ci il tarixli, 432 nömrəli Fərmanına uyğun olaraq "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşamaq" şüarı altında 2013-cü ilin 29 may – 1 iyun tarixlərində Bakıda keçirilən II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da Azərbaycan dövlətinin müasir beynəlxalq mədəni dialoqa verdiyi töhfənin bariz nümunəsi olmuşdur. Bununla da Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi Bakı əslində coğrafi körpü rolunu oynamaqla, mədəniyyətlərarası körpü rolunu da müvəffəqiyyətlə icra edir. Bu forumların Azərbaycanda keçirilməsi bir tərəfdən ölkəmizin tolerantlıq, dözümlülük məkanı kimi dünyada tanınması, eyni zamanda beynəlxalq arenada mədəniyyətlərarası, dinlərarası dialoq və əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində irəli sürdüyü təşəbbüs və ideyaların müəllifi kimi fəal mövqe tutması ilə əlaqədardır. Ölkə prezidentinin qeyd etdiyi kimi, Azərbaycan çoxmillətli və çoxkonfesiyalı ölkə olmaqla bərabər həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvü olan nadir ölkələrdəndir və hər iki təşkilatda çox fəal iş aparır. [26]Ümumdünya Mədəniyyətlərarası forumların keçirilməsi Azərbaycanın təkcə neft-qaz ölkəsi kimi deyil, həm də (özü də daha çox) yüksək mədəniyyətə malik ölkə kimi tanınmasına öz töhfəsini verdi. Bu həm də Azərbaycanın müasir dünyada mədəniyyətlər arasında dialoq və əməkdaşlığın güclənməsində maraqlı olan, bu işdə öz missiyası ilə fəal iştirak əzmində olduğunu sübut edən bir dövlət olduğunu göstərdi. İlham Əliyevin göstərdiyi kimi, Azərbaycan tərəfindən irəli sürülmüş regional təşəbbüslər eyni zamanda, regional əməkdaşlıq üçün yaxşı şərait yaradır və xalqlararası, millətlərarası dialoqun aparılması bu müsbət meylləri daha da gücləndirir. 2013-cü il oktyabrın 31 - noyabrın 2-də Bakıda keçirilmiş III Beynəlxalq Humanitar Forum da Azərbaycanın paytaxtının bütün dünyanı narahat edən siyasi, iqtisadi, humanitar məsələlərin geniş müzakirə edildiyi beynəlxalq əməkdaşlıq mərkəzlərindən birinə çevrildiyini təsdiq etdi.

2006-cı ildən başlayaraq Bakının bir sıra mötəbər forumlara ev sahibliyi etməsi, 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilməsi, 2012-ci ildə "Evrovizon" mahnı müsabiqəsini keçirməsi, 2015-ci ildə ilk Avropa oyunlarının Bakıda keçirilməsi – bütün bunlar Azərbaycanda mədəniyyətlərarası dialoqun aparılması üçün çox gözəl zəmin və əsas olduğunu göstərir. Əlbəttə, iş təkcə forumların keçirilməsi ilə məhdudlaşmamalıdır. İrəli sürülən təkliflərin, təşəbbüslərin reallaşdırılması üçün səmərəli fəaliyyət göstərilməli, mədəniyyətlərarası dialoqun inkişafı üçün ciddi tədbirlər görülməlidir. Müxtəlif mədəniyyətlərin, sivilizasiyaların arasında dialoqun inkişafına öz layiqli töhfəsini vermiş "Bakı prosesi"nin əhəmiyyəti zaman keçdikcə daha aydın dərk olunmağa başlayır.

Fəslin üçüncü yarımfəslində Heydər Əliyev Fondunun mədəniyyətlər arasında dialoqun inkişafına xidmətləri işıqlandırılmışdır. Bu gün Fond Azərbaycan mədəniyyətinin dünyada daha geniş tanıdılması üçün genişmiqyaslı işlər həyata keçirir. Xüsusən, Azərbaycan muğam sənətinin inkişafına xidmət edən milli və beynəlxalq layihələrin reallaşdırılması işində qurumun mühüm xidmətləri danılmazdır. Fondun təşəbbüsü ilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzi və Müasir İncəsənət muzeyi yaradılmışdır.

[25]Bakı Beynəlxalq Humanitar Forumunun Bəyannaməsi. // "Azərbaycan" qəzeti, 2012, 6 oktyabr.
[26]Azərbaycan, 2013, 31 may]

2005-ci ildən Fond tərəfindən ölkəmizdə bir sıra musiqi festivalları keçirilir. Artıq Heydər Əliyev Fondu beynəlxalq səviyyədə mədəniyyətlər arasında dialoqda nəinki yaxından iştirak edir, beynəlxalq mədəni əməkdaşlığın və dialoqun genişləndirilməsi üçün bir sıra proqramların və layihələrin təşəbbüskarı və təşkilatçısı rolunda çıxış edir. Fondun eqidası altında həm Azərbaycanda, həm də ölkədən kənarda bir sıra forumların keçirilməsi bunun əyani sübutudur. Heydər Əliyev Fondunun mədəniyyətlərin dialoqunun inkişafında qadınların rolunun araşdırılması istiqamətində gördüyü işlər mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Bu baxımdan 2008-ci il iyun ayında Fondun təşkilatçılığı ilə Bakıda keçirilmiş "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda Forum xüsusi qeyd edilməlidir.

Azərbaycan mədəniyyətinin dünyada geniş təbliğində, ölkəmizin mədəniyyətlərin dialoqunda iştirakının genişlənməsi Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın mühüm rolu və xidmətlərini qeyd etmək lazımdır. M.Əliyeva xalqımızın milli varlığını özündə yaşadan zəngin mənəvi-intellektual, elmi, mədəni dəyərlərimizi, sərvətlərimizi qloballaşmanın mənfi təsirlərindən qorunması üçün geniş miqyaslı işlər həyata keçirir. Mədəniyyəti "daha geniş anlamda müasir cəmiyyətin bir çox problemləri həll edə biləcək universal vasitə" adlandıran Mehriban Əliyeva buna görə də bəşəriyyətin mədəni irsinin qorunmasını və saxlanmasını olduqca vacib məsələ olduğunu qeyd edir.[27].Həyata keçirdiyi fəaliyyət nəticəsində Heydər Əliyev Fondu müxtəlif ölkələrin ictimai, elmi, mədəni həyatına fəal təsir imkanları qazanmış, ümumbəşəri dəyərlərə sadiq beynəlxalq miqyaslı qeyri-hökumət təşkilatına çevrilmişdir.

Dissertasiyanın sonuncu, **beşinci fəsli "Müasir dünyada mədəniyyətlərarası əməkdaşlığın inkişafında YUNESKO-Azərbaycan əlaqələrinin rolu**" adlanır. Fəslin birinci yarımfəslində YUNESKO-nun mədəni müxtəlifliyin qorunması və milli mədəniyyətlərə dəstək siyasəti təhlil edilmişdir. Bu gün YUNESKO-nun fəaliyyəti bütün dünyada mədəniyyətlərin yaxınlaşmasına və dialoquna, beynəlxalq mədəni hüquqlar sisteminin möhkəmlənməsinə yönəlmişdir. YUNESKO öz fəaliyyətində mədəni müxtəlifliyinin qorunub saxlanılmasına, bütün dünyada mədəni plüralizmin və mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsinə yönəlmiş beynəlxalq kollektiv səylərinin qiymətləndirilməsinə xüsusi diqqət yetirir. YUNESKO-nun fəaliyyətində mədəni plüralizmin və mədəniyyətlərarası dialoqun təşviqi, ümumdünya maddi və qeyri-maddi mədəni irsin qorunması, dil müxtəlifliyinin qorunması və itməkdə olan dillərin dəstəklənməsi, xalq yaradıcılığı, mədəniyyət məhsulları istehsalı, mədəni turizmin inkişafı, mədəniyyət kadrlarının hazırlığı və s. özündə ehtiva edən proqramların və layihələrin həyata keçirilməsi xüsusi yer tutur.

YUNESKO tərəfindən tərtib olunmuş Ümumdünya mədəni və təbii irsinin Siyahısına daxil edilmiş qiymətsiz mədəniyyət və təbiət abidələri sırasında Azərbaycanın mədəni tarixi abidələri – İçəri Şəhər və Qobustan xüsusi yer tutur. Hazırda Azərbaycan ərazisində yerləşən 10 obyekt bu siyahıya daxil olunmağa namizəddir. 2001-ci ildə YUNESKO özünün qeyri-maddi irs siyahısının açmışdır. Buraya hazırda 150-dən çox qeyri-maddi irs nümunəsi daxil edilmişdir.[28] Azərbaycan mədəniyyətinin şedevrləri – muğam 2008-ci ildə, aşıq sənəti – 2009-cu ildə, xalçaçılıq sənəti – 2010-cu ildə, Novruz bayramı isə 2009-cu ildə bu siyahıya daxil edilmişdir. Fəslin "Mədəniyyətlərin dialoqu kontekstində Azərbaycan – YUNESKO münasibətləri" adlı ikinci yarımfəslində ölkəmizin bu beynəlxalq təşkilatla mədəniyyətlərarası dialoqun inkişafı istiqamətində əlaqələri öyrənilmişdir. Azərbaycan müstəqillik illərində YUNESKO ilə əlaqələri möhkəmləndirmək, ölkə mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə təşkilatın bir sıra konvensiyalarına qoşulmuşdur. Ölkəmizin zəngin mədəniyyətini dünyada təbliğ etmək üçün YUNESKO ilə birgə bir sıra mühüm beynəlxalq tədbirlər də təşkil etmişdir. Bu istiqamətdə mühüm addımlardan biri ulu öndər Heydər Əliyevin 1997-ci il 20 aprel tarixli "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi haqqında fərmanı olmuşdur. Yubileylə bağlı tədbirlərdə YUNESKO yaxından iştirak etmiş, təşkilat çərçivəsində dünyanın bir çox ölkələrində mühüm tədbirlər keçirilmişdir.

Azərbaycan prezidenti İlham Əliyev bu mötəbər təşkilatla əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqətlə yanaşır. Dövlət başçısı YUNESKO ilə Azərbaycan arasında qarşılıqlı əlaqələrin inkişaf səviyyəsini nəzərə alaraq 15 sentyabr 2005-ci ildə "YUNESKO üzrə Azərbaycan Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzalamışdır. Bu addım Azərbaycanla YUNESKO arasında əməkdaşlıq əlaqələrinin genişlənməsinə, ölkəmizin təşkilatın xətti ilə keçirilən, sivilizasiyaların və mədəniyyətlərin dialoquna xidmət göstərən layihələrin gerçəkləşməsində ölkəmizin daha fəal iştirak etməsinə, bu məqsədlə keçirilən müxtəlif beynəlxalq tədbirlərə ev sahibliyi etməsinə təkan vermişdir. Son dövrdə Azərbaycan dövləti bütün sahələrdə olduğu kimi, maddi-mədəniyyət nümunələrimizin mühafizəsi, onların dünyada öz adı və ünvanı ilə təqdim olunması istiqamətində məqsədyönlü işlər həyata keçirir. Məhz bu uğurlu siyasətin nəticəsidir ki, bir sıra maddi və mənəvi sərvətlərimiz artıq YUNESKO-nun Maddi-Mədəni İrs siyahısına salınmışdır. Azərbaycan

---

[27]Xoşməramlı səfir. 5 kitabda. B.: Şəms, 2007, V kitab,, s.28
[28]Шедевры нематериального культурного наследия. Официальный Интернет-сайт ЮНЕСКО, май, 2007. www.unesco.org

zəbt olunmuş ərazilərdə mədəni irsin qorunması, konstruktiv tövsiyələrin hazırlanması üçün YUNESKO-ya müraciət edib [13, 2011, 2 oktyabr]. Silahlı münaqişədən əziyyət çəkən Azərbaycan beynəlxalq səviyyədə silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması üçün həyata keçirilən tədbirlərdə yaxından iştirak edir. Azərbaycan dövləti YUNESKO ilə əlaqələrində Ermənistanın işğalı altında olan ərazilərimizdə mədəniyyət abidələrinin və mülkiyyətin mühafizəsi, qeyri-qanuni olaraq mənimsənilmiş mədəni mülkiyyətin restitutsiyası məsələsini daim diqqət mərkəzində saxlayır. Azərbaycan Ermənistanın beynəlxalq arenada, o cümlədən YUNESKO çərçivəsində milli-mənəvi dəyərlərimizin mənimsənilməsi, özününküləşdirilməsi cəhdlərinə qarşı qətiyyətlə mübarizə aparır. 2011-ci ilin noyabrında YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin sessiyasında Ermənistan tərəfi qeyri-maddi irsin təcili qorunma siyahısına salınması üçün iki nominasiya – "Erməni aşıq sevgi romansı ənənəsi" və "Erməni su festivalı – Vardavar" adlı faylların müzakirəsi zamanı bu nominasiyaların Konvensiyanın müvafiq meyarlarına cavab verməməsi, aşıq sənətinin Ermənistan tərəfindən mənimsənildiyi və nominasiyada Dağlıq Qarabağla bağlı təxribat xarakterli istinadların olduğu Komitə üzvlərinin nəzərinə çatdırılmışdı. Ermənistan nümayəndəsinin izahatına baxmayaraq, Komitənin əksər üzvləri ölkəmizin ədalətli mövqeyini dəstəkləyərək Ermənistanı iki nominasiyanın Qeyri-maddi mədəni irs üzrə təcili qorunması siyahısına daxil edilməsinin əleyhinə çıxış etmişlər.[29]

Azərbaycan YUNESKO çərçivəsində mədəni müxtəlifliyin və mədəniyyətlərarası dialoqun inkişafı məqsədlərinə xüsusi önəm verir. YUNESKO-nun dəstəyi ilə ölkəmizdə mədəniyyətlərarası forumların keçirilməsi buna sübutdur. YUNESKO-nun mədəniyyət və mədəniyyətlərarası dialoq sahəsində konvensiyalarına qoşulmaq, təşkilat çərçivəsində və onun dəstəyi ilə Azərbaycan mədəniyyəti ilə bağlı yüksək səviyyəli yubiley tədbirlərinin, sərgilərin, prezentasiyaların təşkili, təşkilatın həyata keçirdiyi mədəniyyət sahəsində layihə və proqramlarda ölkəmizin iştirakının təmin edilməsi istiqamətində səmərəli işlər görülür. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə YUNESKO çərçivəsində Azərbaycanın mədəniyyət xadimlərinin yubileyləri geniş qeyd edilir, milli-mənəvi sərvətləri dünya xalqlarına nümayiş etdirilir.

Azərbaycan Respublikası dialoq siyasətinin tərəfdarı kimi YUNESKO-nun həyata keçirdiyi bütün proqram və layihələrin fəal dəstəkçisi və iştirakçısı olmaqla bərabər, təşkilatın dünyada mədəni müxtəlifliyi qorumaq və dialoqu inkişaf etdirmək yolu ilə sülh mədəniyyətinin daha da möhkəmlənməsi mədəniyyətlərarası əməkdaşlığın genişləndirilməsi istiqamətində fəaliyyətinin səmərəliliyinin artırılması üçün konkret təkliflərlə çıxış etmişdir. Dünya mədəniyyətinin inkişafı ilə bağlı ortaya çıxan çağırışlara adekvat cavab vermək üçün YUNESKO öz fəaliyyətini daim təkmilləşdirməlidir, müxtəlif güc mərkəzlərinin, iri dövlətlərin təşkilatı öz siyasi-milli məqsədlərinə tabe etdirmək cəhdlərinə daha ciddi müqavimət göstərməlidir. Yalnız bu halda o mədəni müxtəlifliyin qorunması və mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi sahəsində öz siyasi strategiyasını uğurla həyata keçirməyə ümid edə bilər.

Dissertasiyanın "Nəticə" hissəsində tədqiqatın nəticələrinə yekun vurulmuş, mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi məqsədi ilə bir sıra tövsiyə və təkliflər irəli sürülmüşdür.

---

[29] AR MTN 2011-ci ilə dair hesabatı., s.71; www.mct.gov.az

Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:

1. Qloballaşma və milli mədəniyyət. Dirçəliş XXI əsr, 158-159, 2011. səh. 279-288
2. Azərbaycanda modernləşmənin tarixi kökləri. Dirçəliş XXI əsr, 159, 2011. səh. 363-374
3. Mədəniyyət və beynəlxalq insan hüquqları sistemi. Dirçəliş XXI əsr, 162-163, 2011. səh. 153-159
4. Integration of Azerbaijan into the world: Historical Cultual Aspects. The Presidium of Azerbaijan National Academy of Sciences. Azerbaijan and Azerbaijanis. Baku, 2011. səh.210-222
5. Azərbaycan tarixi mədəni irsi dünya mədəniyyəti fonunda. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Pedaqoji kadrların İxtisasartırma və Yenidən Hazırlanma İnstitutu. Tarix, İnsan və Cəmiyyət. Elmi-nəzəri və elmi metodik jurnal, Bakı, N 1, 2011. səh.112-125
6. Интеграция Азербайджана в мировое сообщество: Историко-культурные аспекты (до начала XX века). The Caucasus and the world. International scientific Journal. (Международный научный журнал), «Кавказ и мир», №10, 2011 səh. 19-24
7. Глобализация и национальная культура. The Caucasus and the world. International scientific Journal. (Международный научный журнал), «Кавказ и мир», №11, 2011 səh. 121-128
8. Azərbaycan tarixi mədəni irsi dünya mədəniyyəti fonunda. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Doktorantların və Gənc Tədqiqatçıların XV Respublika Elmi Konfransının materialları. Bakı, N 1, 2011.səh.305-308
9. Müasir dünyada mədəniyyətin inkişaf meylləri. Azərbaycan Respublikası uğurlar və perspektivlər. Beynəlxalq elmi konfransın materialları, 16 noyabr 2011-ci il, Bakı, 2012. səh. 167-173
10. Межкультурный диалог: Демократия Безопасность, Толерантность. The Presidium of Azerbaijan National Academy of Sciences. Azerbaijan and Azerbaijanis. Baku, 2012. səh.83-88
11. Mədəniyyətlərin dialoqu və universal dəyərlər. Azərbaycan Milli Elmlər Akademiyası, akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Elmi araşdırmaları" (elmi-nəzəri məqalələr toplusu). IX buraxılış, Bakı, 2012. səh.476-480
12. Mədəniyyət və dünya siyasəti. Azərbaycan Milli Elmlər Akademiyası, Məruzələr, №4, 2012. səh.138-147
13. Beynəlxalq mədəni əməkdaşlıq prinsipləri. Dirçəliş XXI əsr, 166-167, 2012. səh.169-178
14. Xarici siyasətin mədəni humanitar aspektləri. Dirçəliş XXI əsr, 169-170, 2012. səh.245-254
15. Qloballaşmanın əsas ziddiyyətləri (kulturoloji baxış). Azərbaycan Universitetini Elmi jurnalı, İpək yolu, №3, 2012 səh.122-128
16. Mədəniyyət qloballaşma kontekstində. Azərbaycan Universitetini Elmi jurnalı, İpək yolu, №4, 2012 səh.122-129
17. Sivilizasiyalararası münasibətlər: mədəniyyət və dövlət faktoru. Tarix və onun problemləri. Nəzəri elmi metodik jurnal, №3, Bakı, 2012. səh.250-254
18. Sivilizasiyaların dialoqu: Qərb və Şərq faktoru. Tarix və onun problemləri. Nəzəri elmi metodik jurnal, №4, Bakı, 2012. səh.151-156
19. Современные проблемы межкультурной коммуникации. Этносоциум и межнациональная культура международный издательский центр этносоциум, №6/48, Москва, 2012 səh.135-139
20. Multikulturalizm: bəla, yoxsa nicat yolu? AR Təhsil Nazirliyi, Azərbaycan Universiteti. Azərbaycan Dövlətçiliyinin 94 illiyinə və Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr edilən beynəlxalq elmi konfransın materialları. Multikulturalizm – bəla, yoxsa nicat yolu? Bakı Azərbaycan Universiteti, 9 iyun 2012-ci il. səh.341-346
21. Современные проблемы межкультурной коммуникации. Научное и общественно-политическое издательство. Международный издательский центр этносоциум. Культура и Мира, №1, Москва, 2013. səh. 57-64
22. Mədəniyyətlərarası dialoqun inkişafında YUNESKO-nun rolu. Tarix və onun problemləri. Nəzəri elmi metodik jurnal, №1, Bakı, 2013. səh.188-196
23. Mədəniyyətlərin dialoqunda turizmin rolu. Tarix və onun problemləri. Nəzəri elmi metodik jurnal, №3, Bakı, 2013. səh.239-242
24. Mədəni hüquqların təminatının beynəlxalq mexanizmləri. Dirçəliş XXI əsr, 173/174, 2013. səh.289-296
25. Azərbaycan müasir mədəniyyətlərarası dialoqda. Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, №3, 2013. səh.176-181.
26. Mədəniyyətlərin qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri. Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, №4, 2013. səh.128-134

27. Müasir beynəlxalq münasibətlərdə mədəniyyət amili. AMEA xəbərləri. Tarix, fəlsəfə, hüquq. 2013, N1.Bakı: Elm, 2013. səh.206-211

28. Политика ЮНЕСКО по поддержке национальных культур. Этносоциум и межнациональная культура международный издательский центр этносоциум, №7/61, Москва, 2013. səh.123-134

29. Culture and Civilization: Unity of Contradictions. Научно-теоретический и практический журнал. Оралдын Ғылым Жаршысы, №31(79), Урал, 2013. səh.50-64

30. Dünyada milli-mədəni müxtəlifliyin qorunması kontekstində Azərbaycan -YUNESKO əlaqələri. Bakı Avrasiya universiteti. Sivilizasiya jurnalı, 2014, N1 səh. 40-54

31. Взаимная связь и взаимное влияние культур. Tileя. Науковий вісник. Випуск 80 (№1), Киiv, 2014. səh.168-171

32. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə mədəniyyətlərin dialoqu kontekstindən baxış. AMEA-nın İnsan Hüquqları İnstitutu, İnsan Hüquqları İnstitutunun 15 illiyinə həsr olunmuş “Soyqırım və terror erməni ideologiyasının əsas amilləri kimi” beynəlxalq konfrans. səh.64-67

33. Фактор культуры в современных мировых процессах. Tileя. Науковий вісник. Випуск 75 (№8) səh.483-488

34. Müasir dünyada mədəniyyətlərarası münasibətlər. Bakı: Elm, 2013 347 səh.

35. Mədəniyyətlərin qarşılıqlı əlaqələrində YUNESKO-nun rolu. Bakı: Beynəlxalqkitab, 2014. 78 səh.

36. The Interrelation of Cultures. International Conference on European Science and Technology. Munich Germany Materials of the IX International Research and Practice Conference. Vol.II, December 24th – 25th 2014. səh.175-176

37. Мультикультурализм: беда или панецея. Культура и мира, №2, Москва, 2014. səh. 30-43

38. Mədəniyyətlərin kontekstində Azərbaycan – YUNESKO münasibətləri. Bakı, Avrasiya Universiteti, Sivilizasiya, N11, 2014. səh. 261-273

39. Mədəniyyətlərin dialoqu: Azərbaycan nümunəsi. GEO Strategiya Erməni Soyqırımı əfsanəsi və müasir dövrdə onun Hədəfləri, 26 fevral 1992 Xocalı Soyqırımını unutma! N1, 25 yanvar – fevral, 2015. səh.64-70

40. Modern Azerbaijan Society and the Problems of Multiculturalism. International Conference on European Science and Technology. Munich Germany Materials of the X International Research and Practice Conference. Vol.II, May 28th – 29th 2015. səh.188-195

41. Culture and Civilization: Unity of Contradictions. American Journal of International Law. August, Volume 109, Number 5. Impact Factor and Information Publisher: American Society of International Law Features articles and comment on current developments in International Law and International relations. ISSN: 002-9300, Copyright Thomson & Reuters, 2015, Impact factor 1.056 səh.117-130

*Севда Агамирза кызы Алиева*

# УЧАСТИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В МЕЖКУЛЬТУРНОМ ДИАЛОГЕ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ (СРАВНИТЕЛЬНО-ПОЛИТИЧЕСКИЙ АНАЛИЗ)

## РЕЗЮМЕ

В диссертационной работе исследуется опыт участия Азербайджанской Республики в межкультурном диалоге на современном этапе, ее вклад в укрепление культурного сотрудничества между народами и государствами.

Диссертация состоит из введения, пяти глав и заключения. Во введении обоснована актуальность темы, проанализирована степень изученности, определены основные цели и задачи исследования, его научная новизна и теоретико-практическая значимость.

В первой главе – «Культура и современные международные отношения» рассматриваются значение культурного фактора в современных мировых процессах, судьба национальных культур в условиях глобализации. В этом контексте особое внимание обращается к проблеме мультикультурализма, его внутригосударственным и международным аспектам. Отмечается что, несмотря на критические взгляды, относительно эффективности мультикультурализма в различных странах, эта форма сосуществования различных культур является единственной эффективной в современном мире. Анализируется также современное состояние международных культурных прав и их роль в укреплении культурных взаимодействий.

Во второй главе – «Диалог культур и культура диалога», исследуются основные проблемы, связанные с осуществлением межкультурного диалога. В этом контексте подробно рассматриваются вопросы взаимодействия и взаимосвязи различных национальных культур, выражается отношение к различным дефинициям культуры. При этом основной акцент делается на международное определение значение терминов культура и диалог, выраженное в различных международных документов. В главе освещаются также роль диалога в решении глобальных вызовов современности, сущность и соотношение универсальных ценностей и межкультурного диалога.

Третья глава – «Духовно-культурные факторы интеграции Азербайджана в современный мир» посвящена изучению роли культурного наследия Азербайджана в мировом культурном развитии. Исследуются взаимосвязи и взаимодействия культуры Азербайджана и мировой культуры в историческом аспекте. Рассматриваются также вопросы межкультурного диалога в мировоззрения и политической деятельности Гейдара Алиева.

Четвертая глава называется «Политика Азербайджанской Республики по межкультурному диалогу в современных условиях» и состоит из четырех параграфов. В ней рассматриваются роль Азербайджанской Республики в развитии международного культурного сотрудничества, шаги, предпринятые в последние годы правительством, по углублению культурных контактов страны с различными странами и международными организациями. Подробно освещается проведенные в Баку по инициативе и при активном участии Азербайджана международные форумы и мероприятия. Особо следует отметить при этом три международных форумов по межкультурному диалогу, два международных гуманитарных форумов и другие мероприятия, которые заложили «Бакинского процесса». Все это позволяет сделать вывод о том, что Азербайджан сегодня является местом где, осуществляется межкультурный диалог, а наша страна служит своеобразным мостом между различными культурами и религиями. В этом контексте, анализируется и деятельность Фонда Гейдара Алиева, который вносит достойный вклад в развитие диалога и сотрудничества между странами и культурами. Рассматривается также роль туризма в расширении международных культурных контактов.

Пятая, заключительная глава посвящена изучению взаимосвязей Азербайджана и ЮНЕСКО. Анализируется политика этой международной организации по сохранению культурного разнообразия и поддержке национальных культур. Подробно рассмотрено также сотрудничество Азербайджанской Республики с ЮНЕСКО по защите национального культурного наследия и пропаганде культурных достижений в мире.

В Заключении обобщаются основные итоги исследования и выдвигаются ряд предложений и рекомендаций по углублению международного межкультурного диалога.

*Sevda Ağamirza Alieva*

**PARTICIPATION OF THE REPUBLIC OF AZERBAIJAN IN INTERCULTURAL DIALOGUE IN CONDITIONS OF GLOBALIZATION (COMPARATIVE-POLITICAL ANALYSIS)**

**SUMMARY**

The Present Doctoral Thesis studies the experience of the Republic of Azerbaijan in the intercultural dialogue at the present stage of development, its contribution to strengthening of cultural cooperation among the nations and states. The Thesis consists of an introduction, five chapters and conclusion. The introduction substantiates the topicality of the theme, analyzes the degree of its subjection to studies in the past, and determines the basic goals and aims of the investigation, its theoretical novelty and theoretical-practical significance.

The first chapter, which is titled "Culture and the contemporary international relations", studies the importance of cultural factor in the contemporary world processes, the fate of national cultures in conditions of globalization. In this context a special attention is paid to the problem of multi-culturalism in its intra-state and international aspects. It is noted that despite the critical concerning the efficiency of multi-culturalism in different countries, this form of coexistence of different cultures is the only effective one in the present world. It also analyzes the present state of international cultural laws and their role in strengthening cultural interaction.

The second chapter titled "Dialogue of cultures and culture of the dialogue", studies the main problems connected with the realization of inter-cultural dialogue. In this context the author of the thesis studies the issues of interaction and interrelation of different cultures, discloses her views concerning various definitions of culture. While doing it the author focuses attention on the international definition of the meanings of the terms of culture and dialogue expressed in different international documents. The chapter also illuminates the role of the dialogue in the solution of global challenges of contemporaneity, the essence and correlation of universal values and inter-cultural dialogue.

The third chapteer titled "Spiritual-cultural factors of integrartion of Azerbaijan into the present-day world", has been devoted to the study of the role of the cultural heritage of Azerbaijan in the cultural development of the world. It subjects to investigation the interrelation and interraction of the culture of Azerbaijan and the world culture in the historical perspective. It also reviews the issues of inter-cultural dialogue in the world outlook and political activity of Heydar Aliyev.

The fourth cghapter titled "The policy of the Republic of Azerbaijan in the sphere of intercultural dialogue in the present-day conditions," consists of four subchapters. It has been devoted to the study of the role of the Republic of Azerbaijan in the development of international cultuiral cooperation, the steps undertaken by the government in the recent years for deepening cultural contacts of Azerbaijan with different countries and international organizations. It illuminates in detail the international forums and cultural events held in Baku on the initiative and with the active participation Azerbaijan. It is necessary to note three international furums devoted particularly to intercultural dialogue , two international humanitarian forums and other events, which laid the foundations of "the Baku Process". It all allows make an inference that Azerbaijan today is a spot, or areana, where the intercultural dialogue is held, the country serves the role of a kind of a bridge among various cultures and religins. In this context the Chapter analyzez the activity of Heydar Aliyev Foundation, which makes a worthy contributuion to the development of the dialogue and cooperation among the countries and cultural contacts.

The fifth, which is the copncluding chapter, has been devoted to to the interrelation of Azerbaijan and UNESCO. It analyzes the policy of this international organizationn for the preservation and protection of cultural diversity and maintenance of national cultures. It also reviews in detail the cooperation of the Republic of Azerbaijan with UNESCO in the sphere of protection of the national cultural heritage and propagation of cultural achievements in the world.

The Conclusion summarizes the inferences of the study and advances her proposals and recommendations aimed at deepening intercultural dialogue.

Format: 60x84 1/16. Tiraj 100. Sifariş № 45

DİA-nın mətbəəsi